# REGION PRESS

№12 (187) 30.09.2015

Qəzet 2008-ci il martın 15-dən çıxır

AZERBAIJANIAN'S CULTURE CENTRE GEORGIA AMM

İctimai qəzet "რეგიონ პრესი" საზოგადოებრივი გაზეთი

www.amm.ge


## GÜRCÜSTANIN BAŞ NAZİRİ QURBAN BAYRAMI GÜNÜ TBİLİSİ CÜMƏ MƏSCİDİNDƏ OLUB

*Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Qurban bayramı ilə əlaqədar Tbilisi Cümə Məscidində olub. Allah evində Din xadimləri və möminlərlə yanaşı ölkənin dövlət və hökumət nümayəndələri, Azərbaycanın, Türkiyənin və İranın bu ölkədəki səfirliklərinin əməkdaşları, ictimaiyyətin təmsilçiləri iştirak ediblər.*



Baş nazir Gürcüstanda, eləcə də dünyanın müxtəlif ölkələrində yaşayan müsəlmanları müqəddəs Qurban bayramı münasibətilə təbrik edib, Allahdan onların dualarının, ibadətlərinin və kəsilən qurbanların qəbul olunmasını diləyib.

İrakli Qaribaşvili Gürcüstandakı dini icmaların dinc, dostluq şəraitində fəaliyyət göstərmələrindən məmnunluqla danışıb, bütün dini icmalara normal şəraitin yaradıldığını, onlara dövlət tərəfindən yardımların göstərildiyini diqqətə çatdırıb.

Baş nazir İslam dininin dostluq, sülh və bərabərlik dini olduğunu qeyd edib, Gürcüstanda yaşayan müsəlmanların digər dini icmaların nümayəndələrinə hörmətlə yanaşdıqlarını, qanun çərçivəsində fəaliyyət göstərdiklərini yüksək qiymətləndirib.

Sonra Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi hacı Ramin İgidov, muftilər Beqlar Kamaşidze və Yasin Əliyev, Azərbaycanın, Türkiyə və İran İslam Respublikasının səfirləri təbriklərə qoşularaq göstərilən diqqətə, xoş sözlərə və təbriklərə görə Baş nazir İrakli Qaribaşviliyə minnətdarlıqlarını bildirib, Qurban bayramının məziyyət və əhəmiyyətindən danışıblar.

Sonda Baş nazirə hədiyyə təqdim olunub.

**RegionPress**

## Xarici pasportların qiyməti 70 lari oldu

21 sentyabr tarixində Gürcüstan Ədliyyə nazirinin təşəbbüsü ilə Gürcüstanda biometrik pasportlara dair aksiya başladı. Aksiya çərçivəsində 21 oktyabr tarixinə qədər xarici pasportlar 100 lari əvəzinə 70 lariyə başa gələcək. Aksiyadan 18 yaşı tamam olmuş hər bir Gürcüstan vətəndaşı yararlana bilər.




Aksiya müddətində biometrik pasport almaq üçün qanunla nəzərdə tutulmuş güzəştlərdən istifadə edən sakinlər yararlana bilməyəcək. Gürcüstanın ərazi bütövlüyü uğrunda mübarizədə sağlamlığını itirmiş vətəndaşlar təmənnasız pasport əldə edə bilərlər. Müharibə veteranları, məcburi köçkünlər və yetkinlik yaşına çatmamış vətəndaşlar üçün pasportun dəyəri 50 lari təşkil edir. Pasport almaq üçün sakinlər hər hansı Ədliyyə evi filialına müraciət edə bilərlər.

## Tiflisdə QMİ-nin Gürcüstan nümayəndəliyinin 20 illiyi qeyd olunub

*Tiflisdə Qafqaz Müsəlmanları İdarəsinin Gürcüstan nümayəndəliyinin 20 illik fəaliyyətinə həsr olunmuş görüş keçirilib.*

Tədbirdə Gürcüstan katolikosu və patriarxı II İlya, xristian və müsəlman din xadimləri, Gürcüstan parlamentinin deputatı Azər Süleymanov, sabiq deputatlar Hidayət Hüseynov, Ramiz Bəkirov, İshaq Novruzov, Azərbaycanlıların Mədəniyyət Mərkəzinin (AMM) sədri Fazil Həsənov, ictimaiyyət nümayəndələri, gürcü və azərbaycanlı ziyalılar iştirak ediblər.

Tədbirdə Müqəddəs və Pak II İlya çıxış edərək Azərbaycanla Gürcüstan arasında olan dinlərarası tarixi dostluqdan, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Hacı Allahşükür Paşazadə ilə aralarında olan dostluq və qardaşlıq münasibətlərindən söz açıb. O, 20 il ərzində QMİ-nin Gürcüstan nümayəndəliyinin geniş fəaliyyət göstərdiyini, nümayəndəliyin rəhbəri Hacı Əli Əliyevin fəaliyyəti sayəsində dinlər arasında dostluğun daha da möhkəmləndiyini bildirib.



Tədbirdə Gürcüstan parlamentinin deputatı A. Süleymanov, sabiq deputatlar H. Hüseynov, İ. Novruzov, ziyalılardan F. Həsənov, İ. Bayramov və başqaları çıxış edərək Gürcüstan patriarxı II İlyaya QMİ-nin Gürcüstan nümayəndəliyinin 20 illiyinə həsr olunmuş görüşü təşkil etdiyinə görə təşəkkür ediblər.

**N.Məmmədzadə**

## Tarixin səhifələrini vərəqləyəndə

*Gürcüstan tarixi ilə tanış olduqda və onun səhifələrini vərəqləyəndə burada yaşayan millətlərin bu tarixin bir parçası olduğuna əmin olursan.*




Sentyabr ayının 24-də paytaxtın tarixi və qədim ərazisi olan Ortacala məhəlləsində böyük bir izdiham var idi. Burada ucalan "300 Araqvililər" memorialı önündə tarixi Krtsanisi döyüşü, onun qəhrəmanlarına həsr olunmuş "Krtsanisoba" bayramı keçirildi.

1795-ci ilin sentyabr ayının əvvəllərində İran şahı Ağa Məhəmməd şah Qacar 35 minlik qoşunla Tiflis şəhərinə yaxınlaşıb ona hücum etməyə hazırlaşdı. Onun qoşunları Soğanlıq-Yağlıca düzündə düşərgə salıb, Sarvanda qərargah yaratdı. Yadellilərin hücumuna hazır olmayan II İrakli ümidini Rusiyaya və rus qoşunlarına bəslədi, amma onun ümidləri boşa çıxdı. Böyük hərbi ehtiyatlara və təcrübəyə malik olan İran qoşunlarına qarşı II İrakli cəmi 5000 nəfərlik qoşun toplaya bildi. İlk hücumları böyük qəhrəmanlıqla dəf edən gürcü qoşunlarının ehtiyatları tükənirdi. 300 Araqvililər memorialı önündə yerləşən qədim divar qalıqları yanından əsas hücum gözlənilirdi. Elə burada şəhərin müdafiəsində Azərbaycanlılardan təşkil olmuş 200 nəfərlik dəstə vuruşmalarda böyük fədakarlıq və qəhrəmanlıq nümunələri göstərdilər.

*(Davamı səh. 2-də)*

### Qənirə Paşayeva ilə görüş
### *Azərbaycanca-Gürcücə lüğətin təqdimatı*



Səh.5-də

### Gürcüstan parlamentinin deputatı Mahir Dərziyevlə müsahibə



Binnət Əlioğlu

Səh.6-da

### Professor Əliyar Qarabağlı haqqında xatirələrim



Təhməz Abbasov

Səh.7-də

### Şair Səadət Buta haqqında bir neçə sözü



Güllü Eldar (Tomarova)

Səh.10-da

# Tarixin səhifələrini vərəqləyəndə

(Əvvəli səh. 1-də)

Tarixi məlumatlara görə, bu dəstələrə Borçalı mahalından olan Xudu bəy və Sadıq bəy başçılıq edirdilər. Vuruş meydanında qüvvələr bərabər deyildi, həm də bir sıra xəyanət üzündən bu vuruşmada şəhər müdafiəçiləri məğlub oldular. Paytaxt şah qoşunları tərəfindən qarət olundu və yandırılıdı . 75-yaşlı II İrakli nəvəsi şahzadə İoanın başçılıq etdiyi kiçik bir dəstə ilə mühasirəni yarıb əvvəlcə Saquramoya, sonra isə Tuşet dağlarına çəkilməyə məcbur oldu. Tarixi məlumatlara istinad edərək söyləmək olar ki , II Irakli azərbaycanlılara xüsusi hörmət və qayğı ilə yanaşırdı. Elə bu səbəbdən o ailəsinin müdafiəsini və təhlükəsizliyini azərbaycanlılara etibar edib. Vəziyyətin ağırlaşdığı bir dövrdə, düşmən əlindən ailəsini xilas etmək məqsədi ilə II Irakli arvadı Darecan xanımı və körpələrini Borcalıda tanınmış Yadigarovlar sülaləsindən olan Xeyransa xanıma və onun başçılıq etdiyi əksəriyyəti azərbaycanlılardan təşkil olunmuş dəstəyə etibar etmişdir O, isə öz növbəsində padşahın yaxınlarını Seyidabad dərəsi və gizli yollarla təhlükəsiz yerə catdırıb onun ailəsini xilas etmişdir.



1795- ci il vuruşu və burada azərbaycanlıların mərdliyi haqda rus tarixçi və tədqiqatçısı Aleksandr Natroyev 1898 –ci ildə öz əsərlərində göstərmişdir. O yazır: "Bu hadisə Borçalı türklərinin əsrlərlə ölçülən və gürcü dövlətçiliyinə təmənnasız sədaqətliliyini sübut edən və gürcü tarixi mənbələri ilə təsdiqlənən və sayı yüzlərlə olan tarixi faktlardan biridir."

Bu tarixi günə həsr olunmuş mərasimdə Tbilisi meri D.Narmaniya başda olmaqla şəhər meriyasının məsul işçiləri, Gürcüstan parlamentinin deputatları, din xadimləri, şəhər ictimaiyyəti iştirak etmişlər. Hər il olduğu kimi Azərbaycanlıların Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə gənclərdən ibarət heyət də bu tədbirə "Xudu Borçalının nəvələri" şüarı ilə qatılmışlar. Mərkəzin əməkdaşı Faris Əmiraslanov Gürcüstanda yaşayan azərbaycanlıların hər zaman Gürcüstanın ərazi bütövlüyü uğrunda döyüşdüyünü, Gürcüstan dövlətçiliyinin və müstəqilliyinin bərpası tarixində xalqımızın da müstəsna rolu olduğunu və bu gün də onların buna hazır olduğunu vurğulayaraq, həmçinin Xudu Borçalı şəxsiyyəti haqqında iştirakçılara məlumat vermişdir.

Krtsanisoba bayramı ilə əlaqədar dini ayinlət oxunub, sonra isə öz fəaliyyət kollektivlərinin konserti olmuşdur.

**Qəhrəmanlar**

# Gürcüstan parlamentinin sədri: *"Milli azlıqların nümayəndələri dövlət dilini öyrənməli və istifadə etməlidirlər"*



"Hər bir dövlətin vətəndaşlarının dövlət dilini bilməsi üçün bütün imkanlardan yararlanması olduqca vacibdir. Bu məqsədə sanksiya, cəza və cərimə ilə də nail olmaq olar. Lakin maarif bazasını yaratmaq yolu ilə bu məqsədə çatmaq ən vacib yoldur. Paralel olaraq etnik azlıq nümayəndələrinin mədəniyyətinə və dilinə hörmət etmək lazımdır".

Bunu APA-nın Gürcüstan müxbirinə Gürcüstan parlamentinin sədri David Usupaşvili deyib.

O qeyd edib ki, Gürcüstanda yaşayan milli azlıqlar, o cümlədən azərbaycanlılar ölkənin tamhüquqlu vətəndaşlarıdır. "Mən hansısa ölkəyə gedib ailəmlə birgə orada yaşasam, iki məqsədim olacaq: öz dilimi saxlamaq və yerli cəmiyyətin danışdığı dili öyrənmək. Ona görə də dövlət paralel olaraq iki dilin qaydalarını öyrənməyi təmin etməlidir. Buna görə də milli azlıqların nümayəndələri həm öz dilini, həm də dövlət dilini öyrənməli və istifadə etməlidirlər. Bu istiqamətdə Gürcüstan hökuməti və parlamenti bir çox işlər görür. Biz artıq "Dövlət dili haqqında qanun" qəbul etmişik. Bu qanunda Gürcüstanda yaşayan milli azlıqların dövlət dilini öyrənməsi üçün konkret tədbirlər nəzərdə tutulub".

Parlament sədri bildirib ki, tam inteqrasiya olunmuş vətəndaş cəmiyyətinin yaradılması dövlət dilinin öyrənilməsi prosesindən asılıdır.

D. Usupaşvili dövlət dilinin öyrənilməsi prosesində olan problemlərdən də söhbət açıb: "Bu sahədə problemlər var, onları həll etmək lazımdır. Lakin bu problemləri 1-2 il müddətində həll etmək mümkün deyil. Çünki bunun ilkin tarixi səbəbləri olub. Əvvəllər biz Sovet İttifaqı adlanan böyük ölkədə yaşayırdıq və orada fərqli qanunlar, xalqlar arasında müxtəlif danışıq dilləri var idi. Biz müstəqillik əldə etdik və indi dilin öyrənilməsinə zaman tələb olunur. Arzu edərdim ki, dövlət dilinin öyrənilməsi daha da sürətlənsin".

# BMT-nin yaradılmasından 70 il keçir



*San-Fransiskoda Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsinin imzalanmasının 70-ci ildönümü şərəfinə tədbirlər keçirilib.*

BMT 70 il bundan əvvəl, İkinci Dünya müharibəsinin dəhşət və dağıntılarından sonra məhz bu şəhərdə yaradılıb.

1945-ci ildə San-Fransiskoda 50 ölkənin nümayəndələrinin iştirakı ilə yeni dünya nizamının təməlini qoyan təşkilatın Nizamnaməsinin hazırlanmasına həsr edilmiş beynəlxalq konfrans keçirilib.

70 ildən sonra BMT-nin baş katibi həmin Nizamnamənin imzalandığı "Fairmont San Francisco" mehmanxanasına gəlib. Pan Gi Mun, San-Fransisko şəhərinin meri Edvin Li və Amerika Konqresinin Nümayəndələr Palatasında demokratların lideri Nensi Pelosi şəhər meriyasında Nizamnamənin tarixinə həsr olunmuş anım mərasimində iştirak ediblər. BMT başçısı hamını və hər kəsi daha davamlı və hamı üçün məqbul dünya nizamı qurulmasına nail olmağa çağırıb.

Pan Gi Mun deyib: "BMT-nin 70 illiyi bizim ümumi gələcəyimiz üçün böyük əhəmiyyət kəsb edəcək mühüm qərarlar hazırlanması ilinə təsadüf edilib. İndi ölkələr yeni davamlı inkişaf proqramı üzərində işləyir və iqlim dəyişmələrinə dair mühüm sazişə nail olmaq istiqamətində irəliləyirlər".

BMT rəhbəri daha sonra deyib: "Bizim məqsədimiz dünyanı dəyişməkdir. Biz dünyanı səfalətdən xilas edə biləcək birinci nəsil və planetdə istiləşmənin ən pis nəticələrinin qarşısının alınması üzrə tədbirlər görmək iqtidarında olan sonuncu nəsilik".

Qeyd edək ki, qurulduğu illərdə 51 üzvə sahib olan və hal-hazırda üzv sayını 193-ə çatdıran BMT-nin yaranmasının 70-ci ildönümü dünya miqyasında müxtəlif tədbirlərlə qeyd olunur.

# Azərbaycan birinci yerdədir

2015-ci ilin ikinci kvartalının göstəricilərinə görə, Gürcüstanda sərmayələrin miqdarı 355 milyon amerikan dollarını təşkil edib. Sərmayələr əsasən nəqliyyat və kommunikasiya, maliyyə və emal bölmələrində həyata keçirilib. Bütövlükdə sərmayələrin artımı ötən ilin eyni dövrü ilə müqayisədə 81 faizi təşkil edir. Gürcüstan statistikasının məlumatına görə sərmayə Azərbaycandan - 45 faizi, Niderlanddan -19 faizi, Türkiyədən isə 12 faizi təşkil edib. İqtisadiyyat Nazirliyindən şərh edirlər ki, sərmayələrin artımı fonunda milli valyutanın inkişafı kənar amillər ilə və dünyada dolların möhkəmlənməsi ənənəsi ilə əlaqədardır.

**Mirzə Məmmədoğlu**



# Getdi

***Böyük kaman ustası Habil Əliyevin əziz xatirəsinə***

Susdu nəğmələri ulu kamanın,
Muğamın Segahı, Zabulu getdi.
Yay günü qar yağdı şən könüllərə,
Taleyin bir bahar fəsili getdi.

İtkisi çox olub dövrün, zamanın,
Ürəklər göynədən bu günkü anın,
Analar laylası ulu kamanın,
Könüllər oxşayan gur zili getdi.

Qəlbini köz etdi sevən kəsinin,
Oldu tacidarı sənət dərsinin,
Əsrlər yaşayan kaman səsinin,
Gurlayan, çağlayan təbili getdi.

Gəldi səcdəsinə özü zamanın,
Hopdu ürəyinə bütün dünyanın,
Gözü odlar görən Azərbaycanın,
Muğam aləminin Habili getdi.

**Səyavuş Uyğun, 9 sentyabr, 2015-ci il**

# Şəhid ELŞƏN MƏMMƏDOV torpağa tapşırıldı



Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu, sentyabrın 25-də qoşunların təmas xəttində Azərbaycan mövqelərinə basqın etməyə cəhd göstərilməsi nəticəsində şəhid olan 23 yaşlı Elşən Vaqif oğlu Məmmədovun dəfn mərasimi keçirilib. Əslən Bolnisinin Zol-Güvəc kəndindən olan şəhid E. Məmmədovun dəfn mərasimində Azərbaycanın Gürcüstandakı səfirliyinin nümayəndələri, Bütün Gürcüstan Müsəlmanları İdarəsinin şeyxi Hacı Ramin İgidov, Qafqaz Müsəlmanları İdarəsinin Gürcüstan nümayəndəliyinin rəhbəri Hacı Əli Əliyev, müfti hacı Yasin Əliyev, ziyalılar, jurnalistlər, ruhanilər və kənd sakinləri iştirak ediblər. Dəfn mərasimində Bolnisinin baş axundu Hacı İfrət Əhmədov və digər din xadimləri şəhid E. Məmmədovun ruhuna Quran ayələri və dualar oxuyublar. BGMİ-nin din rəhbərləri çıxış edərək şəhidimizə Allahdan rəhmət, ailəsinə və yaxınlarına səbr diləyib və başsağlığı veriblər. Hacı Ramin yas mərasimində olanlara şəhidin məqamı və şəhadətin dəyərindən söhbət edib. Şəhid cənazə namazından sonra Zol-Güvəc kəndinin qəbristanlığında torpağa tapşırılıb.

***Allah bütün şəhidlərə rəhmət eləsin! Amin!***

# Gürcüstanda Azərbaycan dili

Bolnisidəki Alman Dəyirmanının binasında Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova, Ukrayna və Belarusla əməkdaşlıq proqramı çərçivəsində Avropa Şurasının təşkil etdiyi görüş keçirilmişdir.

Tədbir Avropa Xartiyasının regional dillər və Gürcüstanda Azərbaycan icmasının problemləri haqqında informasiya səciyyəli görüş şəklində keçirilib.

Görüşdə Gürcüstan Azərbaycanlı Gənclər İttifaqının rəhbəri Leyla Məmmədova da çıxış edib. O, Gürcüstan Azərbaycanlılarının mədəniyyət abidələrinin mühafizəsinə dair problemlərə toxundu. L.Məmmədova bildirdi ki, Gürcüstan Mədəniyyət, Abidələrin Mühafizəsi və İdman Nazirliyi milli azlıqların daşınmaz abidələrinin və mədəni irs obyektlərinin siyahıya alınmasını həyata keçirir. Lakin, nazirlikdə etnik azlıqların bütün abidələri haqqında tam məlumat yoxdur. Bədii və tarixi dəyər kəsb edən, habelə, mədəni və qədim dini tikinti obyektlərində bərpa işlərinin aparılması nəzərdə tutulmur. Bu abidələr çox vaxt bərbad vəziyyətdədir və bununla bağlı onları məhv olma təhlükəsi gözləyir. Qədim qəbiristanlıqlar tam məhv olmaq təhlükəsi ilə üz-üzə dayanıb. Leyla Məmmədova həmçinin blinqval təhsilin kəskin şəkildə qarşıda durduğu milli məktəblərin problemlərinə, dövlət məktəblərində milli azlıqlar üçün nəzərdə tutulmuş hazır tədris planlarının olmamasına, milli azlıqlara və onların assosiasiyalarına məxsus birgə və ekspertlərin iştirakı ilə dərsliklərin hazırlanmamasına toxunmuşdur.

Tədbirdə Bolnisinin icra başçısı Qiorgi Meşveliani, Gürcüstanda Avropa Şurası ofisi rəhbərinin müavini Alesandro Savares, Gürcüstan Barış və Vətəndaş Bərabərliyi Nazirliyinin Kvemo Kartli üzrə nümayəndəsi Zaur Dargəlli, Gürcüstan Mədəni İrsin Mühafizəsi üzrə Milli Agentliyinin nümayəndəsi Manana Vardzelaşvili, Gürcüstanda almanların Mədəni İrs üzrə Assosiasiyasının rəhbəri Oliver Raysner iştirak və çıxış etmişlər.

**RegionPress**

სს „საქართველოს ნავთობისა და გაზის კორპორაცია“ გაცნობებთ, რომ „აღმოსავლეთ-დასავლეთის“ მაგისტრალური გაზსადენის „წითელიხიდი-გარდაბანის“ მონაკვეთის მშენებლობის გარემოზე ზემოქმედების შეფასების ანგარიშის საჯარო განხილვები გაიმართება:

- 2015 წლის 18 ნოემბერს, 14 საათზე, მარნეულის მუნიციპალიტეტის გამგეობის შენობაში, რუსთაველისქუჩა №73;
- 2015 წლის 19 ნოემბერს, 14 საათზე, გარდაბნის მუნიციპალიტეტის გამგეობისშენობაში, აღმაშენებლის №73;

გარემოზე ზემოქმედების შეფასების ანგარიში ხელმისაწვდომია:

- სს „საქართველოს ნავთობისა და გაზის კორპორაციაში“ და კორპორაციის ვებ-გვერდზე: http://www.gogc.ge/index.php/ge/enviroenmentassasement;
- მარნეულის მუნიციპალიტეტის გამგეობაში;
- გარდაბანის მუნიციპალიტეტის გამგეობაში.

გთხოვთ, წინადადებები და შენიშვნები წერილობით მიაწოდოთ სს „საქართველოს ნავთობისა და გაზის კორპორაციას“ არაუგვიანეს 2015 წლის 12 ნოემბრისა შემდეგ მისამართზე:

სს „საქართველოს ნავთობისა და გაზის კორპორაცია“ / თბილისი, 0190, კახეთის გზატკეცილი №21
/+995 (32) 2 24-40-40 შიდა ნომერი 422/DCC@GOGC.ge

## İrakli Qaribaşvili Amerika Birləşmiş Ştatlarına səfər edib



Gürcüstanın baş naziri İrakli Qaribaşvili Amerika Birləşmiş Ştatlarına səfər edib. Gürcüstan hökumət administrasiyasından "KVİRA"ya verilən məlumata görə, İ. Qaribaşvili BMT-nin Baş Assambleyasının 70-ci sessiyasında çıxış edəcək.

Məlumata əsasən, İrakli Qaribaşvili prezident Barak Obamanın himayəsi atlında təşkil olunmuş BMT-nin zorakılığa və ekstremizmə qarşı liderlərin sülhməramlı əməliyyatı sammitində çıxış edəcək. Gürcüstanın Baş naziri prezident Obama və həyat yoldaşının adı ilə rəsmi qəbula dəvət olunub.

Nyu-Yorka səfəri çərcivəsində İ. Qaribaşvili BMT-nin sammitində "2015-ci ildən sonra inkişaf" mövzusunda çıxış edəcək, həmçinin, gender bərabərliyi və qadın haqlarının müdafiəsi mövzusunda dünya liderlərinin görüşünə qatılacaq, dünyanın qorunması və iqlim dəyişikliyi ilə mübarizə mövzusunda SDG sammitinin interaktiv dialoqunda iştirak edəcək.

Administrasiyanın məlumatına əsasən, hər il keçirilən görüş çərçivəsində Gürcüstanın Baş naziri Klintonun qlobal vətəndaşın mükafatlandırması mərasiminə qatılacaq. Bundan əlavə Baş nazirin ikitərəfli görüşlər keçirəcəyi, eyni zamanda BMT-nin Baş katibi Pan Gi Munla da görüşü planlaşdırılır.

ABŞ-a səfəri çərçivəsində İrakli Qaribaşvili "Georgia-Making Business Easy" iqtisadi forumda çıxış edəcək və gürcü tələbələrlə görüşərək "Discover Georgia" sərgisinə də baxış keçirəcək.

## Prezident:
### "Gürcüstanın Rusiya ilə dialoqa ehtiyacı var"

"Rusiya ilə dialoq seçim mövzusu deyil, vacibdir, lakin buna vaxt lazımdır". "Report" "RİA Novosti"yə istinadən xəbər verir ki, bunu Gürcüstan prezidenti Qeorgi Marqvelaşvili ABŞ-a səfəri zamanı bildirib.

"Rusiya ilə dialoq seçim mövzusu deyil, bu bizim xoşumuza gəlsə də, gəlməsə də, vacibdir.



Lakin belə danışıqlar üçün vaxt yetişməlidir. Rusiya rəhbərliyi və daxili siyasi diskurs elə bir məqama diqqəti yönəltməlidir ki, biz orada ortaq bir maraq görək" - Q.Marqvelaşvili Nyu-Yorkda gürcü diasporunun nümayəndələri ilə görüşdə deyib.

Qeyd edək ki, Gürcüstan prezidenti hazırda ABŞ-da işgüzar səfərdədir. O, Nyu-York və Vaşinqtonda müxtəlif tədbirlərdə iştirak edəcək.

## Qiorqi Marqvelaşvili Nyu-Yorkda gürcü diasporasının nümayəndələri ilə görüşüb

Gürcüstan prezidenti Qiorqi Marqvelaşvili ABŞ-a işguzar səfəri zamanı Gürcüstan diasporasının nümayəndələri ilə görüşüb. Görüş zamanı ABŞ-da yaşayan diasporun nümayəndələrinin marağını nəzərə alaraq prezident ikili vətəndaşlıq mövzusuna aydınlıq gətirib. Qiorqi Marqvelaşvili gürcü miqrantları üçün ikili vətəndaşlığın açıq olduğunu bildirib.



"Sən başqa ölkənin vətəndaşlığını aldıqda, avtomatik olaraq Gürcüstan vətəndaşlığını itirirsən. Amma sənin üçün avtomatik olaraq ikili vətəndaşlıq almaq imkanı da açılır. Bu qanun çərçivəsi üzərində işləyirik",-deyə prezident bildirib.

Marqvelaşvili diaspora nümayəndələri ilə görüşdə, həmçinin, Gürcüstanın siyasi və iqtisadi durumu, Gürcüstan-Rusiya münasibətləri, xarici siyasət, işğal olunmuş ərazilərdə mövcud durum haqqında və gənclərin xaricdə təhsil almaq imkanlarının genişləndirilməsi, diaspora nümayəndələrinin vətənə qayıtması perspektivləri haqqında danışıb, diasporanın Gürcüstanın iqtisadi, siyasi, mədəni inkişafı üçün rolunun böyük olduğunu vurğulayıb.

Görüşdən sonra gürcü miqrantların milli ansamblının çıxışı baş tutub.

## XİN rəhbərləri görüşdülər

***Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov BMT Baş Assambleyasının Nyu-Yorkda keçirilən 70-ci sessiyası çərçivəsində Gürcüstanın Baş nazirinin müavini, xarici işlər naziri Georgi Kvirikaşvilli ilə görüşüb.***



Görüş zamanı tərəflər Azərbaycan və Gürcüstan arasında əlaqələrin hərtərəfli inkişafının məmnunluq doğurduğunu qeyd edib. Dost və qonşu dövlət kimi Azərbaycanla Gürcüstan arasında olan qarşılıqlı faydalı əməkdaşlığın bütün region üçün nümunə olduğu bildirilib.

Tərəflər birgə həyata keçirilən irimiqyaslı nəqliyyat və enerji layihələrinin regional əməkdaşlığa, inkişaf və firavanlığa xidmət etdiyini qeyd edərək, bu layihələrin regionun nəqliyyat və enerji mənzərəsini əsaslı şəkildə dəyişdiyini vurğulayıb.

Nazirlər tezliklə fəaliyyətə başlaması nəzərdə tutulan Bakı-Tbilisi-Qars dəmiryol layihəsinin yük daşımalarının artmasına, ticari-iqtisadi əlaqələrin və insanlararası təmasların inkişafına xidmət edəcəyinə əminliklərini ifadə ediblər.

## Tiflisdə ABŞ səfirliyində gənc azərbaycanlı rəssamların 11 sentyabr faciəsinə həsr olunan rəsm əsərlərinin nümayişi keçirilib



Sentyabrın 11-də azərbaycanlıların kompakt yaşadığı Marneulidə fəaliyyət göstərən Marneuli Gənclər Mərkəzinin (MGM) üzvləri olan 30-dan çox gənc azərbaycanlı rəssam Gürcüstan paytaxtındakı ABŞ səfirliyinin binasında 2001-ci il sentyabrın 11-də baş verən faciəyə həsr olunan sərgi təşkil edib.

APA-nın Gürcüstan bürosunun məlumatına görə, sərgidə MGM-nin nəzdində fəaliyyət göstərən rəsm dərnəyinin üzvlərinin terrorizm və sülhə aid 20 rəsm əsəri nümayiş olunub. ABŞ-ın Gürcüstandakı səfiri vəzifəsini icra edən Nikolas Berliner azərbaycanlı gəncləri qarşılayıb və 11 sentyabr faciəsinin tarixi və problemləri haqqında fikirlərini bildirərək 14 il yaddaşlarda yaşayan faciəni qətiyyətlə pisləyib. Sonra Marneuli Gənclər Mərkəzinin əməkdaşı Emin Əhmədov çıxış edərək dünyada baş verən terrorizmin dünya ölkələrinin inkişafına zərər verdiyini və xalqların yaşayış tərzinə problemlər yaratdığını bildirib. O, terrorizmə tez-tez dini don geyindirildiyini də vurğulayıb. Sərginin açılışında ingilis dilində çıxış edən azərbaycanlı gənclər terrorçuluğun dünya üçün həmişə təhlükə yaratdığını və bu təhlükəyə qarşı birgə mübarizə etməyin vacib olduğunu bildiriblər.

ABŞ səfiri sərgidə nümayiş olunan əsərlərə görə azərbaycanlı gənclərə təşəkkürünü bildirib. Tədbirin sonunda 11 sentyabr faciəsindən bəhs edən film göstərilib və faciə ilə bağlı diskussiya aparılıb.

## Rəqəmsal yayımla bağlı məlumat yönlü görüş

Marneuli bələdiyyəsinin konfrans zalında rəqəmsal yayıma keçidlə bağlı məlumat yonlü görüş keçirildi. İslahat prosesinə qoşulmuş tərəflər yerli əhaliyə rəqəmsal torpaqüstü yayıma keçidlə bağlı ətraflı məlumat verdilər. Görüşün təşkilatçıları İqtisadiyyat Nazirliyi, Gürcüstanın rəqəmsal yayım Agentliyi və Gürcüstanın teleradio mərkəzi, həmçinin Gürcüstanın milli kommunikasiya komissiyası və İnformasiya Azadlığının İnkişafı İnstitutu idi. Görüşdə Kvemo Kartlinin dövlət müvəkkili Paata Xizanişvili, yuxarıda qeyd olunmuş nazirliyin nümayəndələri, Marneuli bələdiyyəsinin icra başçısı Merab Topçişvili, kənd ərazi birliklərində icra başçısının nümayəndələri, yerli sakinlər və qonşu bələdiyyənin nümayəndələri iştirak etdilər. Xatırladaq ki, 2015-ci il iyulun 1-dən Gürcüstan miqyasında analoji torpaqüstü efir siqnalının mərhələ ilə bağlanmasına başlanıldı. Avqustun 25-də torpaqüstü analoji siqnal ümumgürcüstan miqyasında keçirildi. Rəqəmsal yayımı qəbul etmək üçün əhaliyə DVB-T2 standartlarını dəstəkləyən set-top boks yaxud televizor lazım olacaq. Həmçinin siqnalın zəmanətlə qəbul olunması üçün binanın damına metrik-destimetrik anten quraşdırılmalıdır. İstisna hallarda televizorun otağı hündür olduğu halda antenanı otaqda yerləşdirmək olar. Bu işdə əhaliyi dəstəkləmək üçün Gürcüstanın iqtisadiyyat nazirliyi bank sektoru nümayəndələri ilə danışıqlar aparıb. Bank nümayəndələri ilə razılıq əldə olunaraq, set-top bokslar endirimlə və güzəştli şərtlərlə veriləcək. Hökumət həmçinin supsidləşmə praqramını da həyata keçirir. Belə ki, sosial cəhətdən aztəminatlı ailələr (70 min və daha az reytinq balı olanlar) rəqəmsal siqnal əldə etmək üçün aparatı pulsuz əldə edəcəklər.



**Turac İbrahimova**

## Dmitri Kumsişvili:
### *"Son bir il ərzində Gürcüstanda 60 min yeni iş yeri açılıb"*



Gürcüstan iqtisadiyyat və sabit inkişaf naziri Dmitri Kumsişvilinin "Palitra TV"-nin "Rezyume" verilişində verdiyi məlumata əsasən, son bir il ərzində Gürcüstanda 60 min yeni iş yeri açılıb.

"İşlə təmin olunmaqla bağlı yaxşı göstəricilərimiz var. Ötən ilin iyul ayı ilə bu ilin iyul ayını götürsək 60 min iş yeri yaradılıb ki, burda nə bürokratiya rol oynayır, nə də kimlərsə özləri işə düzəliblər. Yalan deməyəcəm, mən bu rəqəmi görəndə əvvəlcə inanmadım, amma şübhə etməyimə heç bir əsas yox idi, çünki statistika departamentinə etibar yüksək dərəcədədir və mən həmin şirkətləri göstərmələrini tələb etdim. Şirkətlərdə işlə təmin edilmiş insanları gördüm. Belə ki, biz 60 min yeni iş yeri yaratmışıq", – deyə Dmitri Kumsişvili bildirib.

## Azərbaycanın Batumidəki baş konsulu patentini Gürcüstanın XİN rəhbəri müavininə təqdim edib

***Azərbaycanın Batumi şəhərinə yeni təyin olunmuş baş konsulu konsul patentini Gürcüstan xarici işlər nazirinin müavininə təqdim edib.***



Qiqi Qiqiadze və Rəşad İsmayılov arasında görüş sentyabrın 23-də baş tutub.

Görüşdə, həmçinin Azərbaycanın Gürcüstandakı səfiri Azər Hüseyn də iştirak edib.

Qiqi Qiqiadze Rəşad İsmayılovu Batumiyə baş konsul vəzifəsinə təyin olunması münasibəti ilə təbrik edib və gələcək işində ona uğurlar arzulayıb.

Görüş zamanı nazir müavini Gürcüstan və Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin xüsusi əhəmiyyətini qeyd edib. Həmçinin bildirilib ki, ölkələr arasında münasibətlər bütün istiqamətlər üzrə olduqca məhsuldar inkişaf edir.

Görüşün sonunda tərəflər Gürcüstan və Azərbaycan arasında qarşılıqlı faydalı əməkdaşlığın dərinləşdirilməsinə maksimum dərəcədə yardım etməyə hazır olduqlarını ifadə ediblər.

## AŞPA Azərbaycana 32 nəfərlik müşahidə missiyasını göndərir

***Avropa Şurası Parlament Assambleyasının (AŞPA) payız sessiyasının birinci iş günündə qurumun Bürosunun toplantısı keçirilib.***

APA-nın Avropa bürosunun xəbərinə görə, Büro iclasındaAŞPA-nın Azərbaycanda keçiriləcək parlament seçkilərinə müşahidə missiyası göndərib-göndərməyəcəyinə dair məsələ müzakirə edilib. Uzun müzakirələrdən sonra lehinə 17, əleyhinə 10 nəfər olmaqla, Azərbaycana ispaniyalı parlamentar Yordi Çuklanın rəhbərlik edəcəyi 32 nəfərdən ibarət müşahidə missiyasını göndərilməsi haqqında qərar qəbul olunub.




Qeyd edək ki, AŞPA daxilində bəzi deputatlar qurumun Azərbaycana müşahidə missiyası göndərməsinin əleyhinə çıxırdılar. Qərar AŞPA sessiyasının plenar iclasında təsdiq olunmalıdır.

## Britaniyanın keçmiş baş naziri Gürcüstana gələcək



***Britaniyanın keçmiş baş naziri Toni Bleyr Gürcüstana səfər edəcək.***

"Report" Gürcüstan KİV-inə istinadən xəbər verir ki, bunu ölkənin baş naziri İrakli Qaribaşvili bildirib.

İ.Qaribaşvili deyib ki, BMT Baş Assambleyası çərçivəsində Gürcüstan nümayəndə heyəti keçmiş baş nazirlə görüşüb. T.Bleyr Gürcüstan hökuməti başçısının dəvətini qəbul edib.

İrakli Qaribaşvili ilə Toni Bleyr Gürcüstandakı və bölgədəki siyasi prosesləri müzakirə edib.

## Almaniya Əsədə olan münasibətini dəyişir

Almaniya kansleri Angela Merkel Brüsseldə Avropa İttifaqının növbədənkənar zirvə görüşündən sonra keçirilən mətbuat konfransında bildirib ki, Suriya münaqişəsinin nizama salınması üçün "bir çox əlaqədar şəxslə" dialoq aparmaq lazımdır. Kansler daha sonra təklifinin ən mühüm ikinci hissəsini səsləndirib: "...o cümlədən Əsəd ilə".



Almaniya hökuməti indiyədək ancaq Suriya liderinin istefaya getməsini tələb edirdi. Amma qaçqınların Avropaya və ilk növbədə Almaniyaya axını, İŞİD terrorçu qruplaşmasının mövqelərinin möhkəmlənməsi, görünür, hökumətin siyasi kursunun tədricən dəyişməsinə səbəb olub.

Almaniyanın xarici işlər naziri Frank-Valter Ştaynmayer artıq bu ilin əvvəllərində qəzetlərin birinə müsahibəsində bildirmişdi ki, prinsip etibarilə Suriya rəhbərliyi ilə danışıqlar imkanını istisna etmir.

## Kastro ABŞ-ı ABŞ-da tənqid etdi

ABŞ-Kuba münasibətlərində irəliləyiş müşahidə edilir, lakin davam edən iqtisadi blokada ölkənin inkişaf etməsinə mane olur. APA-nın "RİA Novosti"-yə istinadən verdiyi xəbərə görə, bunu BMT-də dayanıqlı inkişaf mövzusunda keçirilən sammitdə Kuba rəhbəri Raul Kastro deyib.



Onun sözlərinə görə, Kubaya qarşı yarım əsr davam edən iqtisadi, kommersiya və maliyyə blokadası Kuba xalqına ziyan vuraraq ölkənin iqtisadi inkişafına əngəl törədir.

Kastronun sözlərinə görə, blokada həmçinin ABŞ vətəndaşlarının və şirkətinin maraqlarına da əngəl yaradır.

Qeyd edək ki, ABŞ prezidenti Barak Obama və Kuba rəhbəri Raul Kastro 2014-cü ilin dekabrında 50 il əvvəl dayandırılmış diplomatik münasibətlərin bərpa edilməsini və ticarətə, sərmayə qoyuluşuna və gediş-gəlişə qoyulan bir sıra məhdudiyyətlərin götürüldüyünü elan ediblər. Lakin ABŞ-ın Kubaya qarşı embarqosu hələ də qüvvədə qalmaqdadır, onun ləğvi üçün ABŞ Konqresinin razılığı gərəkdir.

## Lukaşenko: *"Yeni dünya müharibəsi başlayır"*

***Donbas savaşı dayandırılmasa, yeni dünya müharibəsi başlaya bilər.***



Bunu BMT-nin Baş Assambleyası çərçivəsində baş tutan Minilliyin İnkişaf Məqsədləri sammitində çıxış edən Belarus Prezidenti Aleksandr Lukaşenko söyləyib. Onun sözlərinə görə, Avropadakı müharibə bütün sivilizasiya üçün ağır nəticələrə səbəb olacaq:

"Məni bağışlayın, amma biz artıq yeni qlobal konfliktə doğru addım atırıq. Maraqlıdır, yeni minillikdə insan hələ də dünyanın nə qədər kövrək olduğunu anlamayıbmı?"

## İŞİD-lə bağlı şok iddia: *Bu silah onların əlində*

***Terrorçu qruplaşmanın tarixi Palmira şəhərini necə ələ keçirdiyi barədə video yayılıb.***

İŞİD terrorçu qruplaşması ötən ay Suriyada tarixi Palmira şəhərini ələ keçirərkən ABŞ istehsalı olan TOW tank əleyhinə raketlərdən istifadə etdiyinə



dair video yayılıb. Məlumata görə, yayılan videoda görünür ki, terrorçular qarşı tərəfə raket və toplardan istifadə edir.

İddia edilir ki, İŞİD videoda göstərilən silahların böyük hissəsini Suriya və İraq ordularını məğlub etdiyi bölgələrdə və ABŞ-ın dəstəklədiyi Suriya müxaliflərindən ələ keçirib. Bəzi iddialara görə isə TOW tank əleyhinə raketləri Əl Qaidə və İŞİD terrorçu qruplaşmalara ABŞ tərəfindən verilib. TOW tank əleyhinə raketləri Amerikanın ən müasir silahlarından hesab edilir.




**1472** — Quttenberq Bibliyanı çap etmiş və bu hadisə tarixə ilk kitab çapı kimi düşmüşdür.

**1618** — I Abbas Səfəvi və Osmanlı hökmdarı Xəlil Paşa Mərənddə sülh müqaviləsi imzalamışlar. Bu müqavilə tarixdə Sərab sülhü kimi tanınır.

**1882** — Dünyada ilk hidroelektrik stansiyası ABŞ-ın Viskonsin ştatında qurulmuşdur.

**1913** — Məşhur alman mühəndisi Rudolf Dizel müəmmalı şəkildə həlak olmuşdur.

**1949** — Mao Tzedun Çinin dövlət başçısı seçilmişdir.

**1991** — Beynəlxalq Tərcüməçilər İttifaqı yaranmış və bu tarix tərcüməçilər günü kimi qeyd olunmağa başlanmışdır.

**1992** — Azərbaycan Dövlət Neft Akademiyasının məzunu Joze Eduardu duş Santuş Anqola prezidenti seçilir.

## Putin Obama ilə görüşəcək

Rusiya prezidenti Vladimir Putin Nyu-Yorkda BMT Baş Assambleyasında iştirakı çərçivəsində ABŞ prezidenti Barak Obama və Yaponiyanın baş naziri Sindzo Abe ilə danışıqlar aparacaq. APA-nın "TASS"a istinadən verdiyi xəbərə görə, bu barədə Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.



Peskovun sözlərinə görə, Yaponiyanın baş naziri Sindzo Abe və ABŞ prezidenti Barak Obama ilə aparılacaq danışıqların mövzusu artıq razılaşdırılıb. Peskov hər iki görüşün bir gündə baş tutacağını bildirib.

Ağ Ev, öz növbəsində, BMT Baş Assambleyasında Rusiya və ABŞ prezidentləri arasında görüşün baş tutacağını təsdiqləyib.

## Çin kasıb ölkələrə 12 milyard dollar verəcək

***Çinin sədri Si Tsinpin inkişafda olan ölkələrə yardım fondunun yaradılacağını bildirib.Lent.azın "Reuters"ə istinadən verdiyi xəbərə görə, fonda ilkin olaraq 2 milyard dollar yatırılacaq.***



"Çin zəif inkişafı olan ölkələrə investisiyaları artıracaq və 2030-cu ilədək inkişafda olan ölkələr üçün artıq 12 mlrd dollar ayırmaq niyyətindədir", deyə Si Tsinpin BMT-də dayanıqlı inkişafa dair sammitdə çıxışı zamanı bildirib.

O əlavə edib ki, Çin həmçinin dənizə çıxışı olmayan və kiçik ada dövlətlərinə də yardım edəcək.

# Qənirə Paşayeva ilə görüş
## *Azərbaycanca-Gürcücə lüğətin təqdimatı*



Azərbaycanlıların Mədəniyyət Mərkəzinin (AMM) təşkilatçılığı ilə sentyabr ayının 19-da Gürcüstanın Marneuli şəhərində yerləşən "AtaHoldingCenter"də Azərbaycan Respublikası Milli Məclisinin üzvü, Azərbaycan-Gürcüstan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Qənirə Paşayeva ilə görüş keçirildi. Tədbirdə Əli Xəlillinin müəllifi olduğu "Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu" İB-nin təşəbbüsü və Azərbaycanın Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin və "SOCAR Energy Georgia MMC"nin dəstəyi ilə nəşr olunan "Azərbaycanca-Gürcücə luğət"in təqdimatı keçirildi.

Tədbiri giriş sözü ilə açan AMM-in rəhbəri Fazil Həsənov belə çap məhsullarının əhəmiyyətindən danışaraq, bu kitabların orta və ali təhsil ocaqlarına paylanacağını bildirdi, Qənirə xanım Paşayevaya Azərbaycanda keçiriləcək parlament seçkilərində uğurlar arzu etdi.

Qənirə Paşayeva çıxışında Gürcüstanda yaşayan azərbaycanlıların problemləri ilə yaxından tanış olduğunu söyləyərək əhalinin gürcü cəmiyyətinə ineqrasiya olunmasının əsas yolunun dövlət dilini mənimsəməkdən keçdiyini xatırlatdı və bu istiqamətdə luğətlərin çap olunmasının yararlı olacağından söz açdı. Gələcəkdə bu kitabın ikinci nəşrinin hazırlandığını vurğulayaraq yeni nəşrdə lüğətdə habelə sözlərin deyiliş trankskripsiyasının da əks olunacağını dedi. "Bizim ölkələr və xalqlar əsrlər boyu dostluq içində yaşayıb, biz hər zaman bir-birimizə dəstək olmuşuq. Danılmaz faktdır ki, Azərbaycan Gürcüstana ən çox investisiya yatıran və ən yüksək vergi ödəyən ölkədir. Bu da bizim münasibətlərin ali səviyyədə olduğundan xəbər verir." Eyni zamanda Qənirə xanım Paşayeva çıxışında bölgələrin və şəhərlərin qardaşlaşmasını təklif edərək iki ölkə gəncləri arasında körpü rolunu oynayacaq layihələrin vacib olduğunu vurğuladı.

Görüşdə iştirak edən Kvemo Kartli bölgəsinin qubernatoru Paata Xizanişvili bu cür çap məhsullarının əhəmiyyətindən danışaraq, Gürcüstan dövlətinin də milli azlıqların dövlət dilini öyrənməsi istiqamətində marağından və həyata keçirdiyi layihələrdən danışdı. "Biz eyni ağacların kökləriyik. Biz bu kökləri ayırmamalıyıq. Biz əlaqələrimizi və qarşılıqlı münasibətlərimizi daha da genişləndirməliyik. Bütün dünya bizim bu əməkdaşlıq və sıx dostluq münasibətlərimizi görməli və nümunə götürməlidir. Biz gələcəkdə də dostluğumuzun möhkəmlənməsi üçün daha çox çalışmalıyıq".

Qubernator görüşdə təqdimatı keçirilən "Azərbaycanca-Gürcücə lüğət" kitabının nəşrinə də münasibət bildirib: "Bu kitab üçün biz Qənirə Paşayevaya təşəkkürümüzü bildiririk. Bizim regionda azərbaycanlılar daha çoxdur. Bu kitabın təməli böyükdür və daşdan da möhkəmdir. Düşünürəm ki, bizim əlaqələrimiz yalnız kitabla yox, daha da möhkəm və mənalı əlaqələrlə möhkəmlənəcək".

Gürcüstan parlamentinin deputatı Mahir Dərziyev tezliklə Azərbaycanda keçirilən seçkilərdə Qənirə Paşayevanın yenidən Milli Məclisə üzv seçiləcəyinə və səmərəli fəaliyyətinə davam edəcəyinə ümid etdiyini bildirib. O, Tovuz və Dmanisi rayonlarının qardaşlaşmış rayonlar olduğunu qeyd edib: "Mən bir parlament deputatı kimi məsuliyyətlə deyirəm ki, bu gün Gürcüstan-Azərbaycan münasibətləri həm siyasi, həm iqtisadi, həm də mədəni sahədə ən yüksək səviyyədədir. Bu əlaqələr həmçinin Qənirə Paşayevanın təqdirəlayiq əməyi sayəsində bu səviyyəyə çatıb. Bizim möhkəm dostluğumuzu heç kim sarsıda bilməz".



Deputat Mahir Dərziyev görüşdə azərbaycanlıları narahat edən problemlərdən də danışıb: "Biz azərbaycanlıları narahat edən problemlərdə də danışmalıyıq. Biz qətiyyətlə bu problemləri aradan qaldıra bilərik. Bu gün ən böyük problem azərbaycanlıların inteqrasiya problemidir. Bu inteqrasiya həm də təhsildən keçir. Biz təhsil məsələlərində Azərbaycan dövlətinin yardımına, dəstəyinə ümid bəsləyirik".

Marneuli munisipalitetinin icra başçısı Merab Topçişvili, Gürcüstan Parlamentinin üzvü Əli Məmmədov çıxış edərək bölgədəki mövcud problemlərdən və həyata keçirilməsi nəzərdə tutulan layihələrdən söz açdılar. Marneulidə yeni inşa olunan kitabxananın və azərbaycandilli məktəblərdəki kitabxanalarda Azərbaycan dilində klassik ədəbiyyatın, kitabların olmamasından danışdılar.

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfirliyinin birinci katibi İlyas Məmmədov, Gürcüstan parlamentinin azərbaycanlı deputatları, Kvemo Kartli bölgə qubernatorunun müavinləri, Marneuli rayon bələdiyyəsinin sədri Nəbi Abdullayev, Marneuli Rayon təhsil şöbəsinin rəhbəri Ruslan Hacıyev, ziyalılar, jurnalistlər, gənclər, ictimaiyyət nümayəndələri, QHT rəhbərləri, Gürcüstanın ali məktəblərində təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.

Tədbir Azərbaycanlıların Mədəniyyət Mərkəzində onun gənclər şöbəsinin təşkil etdiyi gənclərlə görüşlə davam etdirildi. Görüşdə iştirak edən tələbə-gənclər Qənirə Paşayeva ilə fikir mübadiləsi apararaq gəncliyi narahat edən problemlərdən danışdılar. Qənirə xanım Paşayeva isə onlara öz missiyalarını həyata keçirmək yönündə əzmkarlıq göstərmələrini, öz təhsili, mədəniyyəti ilə örnək ola bilərək gəncləri social şəbəkələrdə fəal olmağa səslədi, bu sahədə dəyərli məsləhətlərini verərək müəllifi olduğu kitabları hədiyyə etdi. Çıxışında gənclərdə müşahidə etdiyi bir sıra mühüm məqamlara toxundu. Erkən evlilik, gənclərin zərərli vərdişlərə meyilli olması, təhsilin vacibliyi və s. məsələlər ətrafında müzakirələr aparıldı.

**RegionPress**

# Marneulidə Üzeyir Hacıbəylinin anadan olmasının 130 illik yubileyinə həsr olunan konsert keçirilib

***Marneulidəki Mədəniyyət Evində görkəmli bəstəkar, Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi Üzeyir Hacıbəylinin anadan olmasının 130 illik yubileyinə həsr olunan konsert keçirilib.***

Tədbir Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi və Tiflisdəki Mirzə Fətəli Axundov adına Mədəniyyət Muzeyinin təşkilatçılığı ilə baş tutub. Tədbiri M.F.Axundov adına Mədəniyyət Muzeyinin direktoru Leyla Əliyeva açaraq bəstəkarın həyat və yaradıcılığından danışıb. L.Əliyeva sentyabrın 23-24-də Qardabani və Bolnisi Mədəniyyət Evlərində dahi bəstəkarımızın mahnı və operettalarından ibarət konsert proqramının təşkil ediləcəyini bildirib.

Sonra tədbirdə Abşeron rayonu Xırdalan şəhər Musiqi Məktəbinin direktoru İkram Manafov çıxış edərək rəhbəri olduğu musiqi kollektivi ilə üçüncü dəfədir ki, Gürcüstana səfər etdiklərini bildirib.



Konsert proqramında Üzeyir Hacıbəylinin "Qaragöz", "Sənsiz", "Arşın mal alan" operettasından Qızlar xoru səsləndirilib, Azərbaycan bəstəkarlarından Ələkbər Tağıyevin, Tofiq Quliyevin, İbrahim Topçubaşovun, Əlibala Məmmədovun mahnıları müğənnilərdən Atlas Mehdiyeva, Hafiz Orucov, Günel Orucova, Qasım Əliyev tərəfindən ifa edilib.

Konsertdə nağaraçılar, kanonçalanlar ansamblları musiqi nömrələri, oğlanlardan ibarət gənc rəqqaslar "İgidlər" və "Şalaxo" rəqsləri nümayiş etdiriblər.

Sonda Xırdalan şəhər Musiqi Məktəbinin direktoru İkram Manafov Abşeron rayonunun 50 illiyinə həsr olunan və nəfis şəkildə nəşr olunan kitabı Marneuli rayon icra hakimiyyəti rəhbərliyinə hədiyyə edib.

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfirliyinin əməkdaşları, Kvemo Kartli bölgə qubernatorluğunun, Marneuli rayon icra hakimiyyətinin rəsmiləri, Marneulinin ətraf kəndlərindən gələn azərbaycanlılar və gürcülər, məktəb şagirdləri, müəllimlər, jurnalistlər iştirak ediblər.

**N.Məmmədzadə**

# Azərbaycan və gürcü xalqlarının dostluğu əbədi və sarsılmazdır!

Bəli, Cənubi Qafqazın ev sahibləri olan azərbaycanlıların və gürcülərin taleləri elə gətirib ki, onlar dünyanın Vətən bölgüsündə qoşa düşüblər. Və hər iki xalqın mənəviyyat, ovqat baxmından bir çox cəhətdən yaxın olmaları onların bir-biriylə mehribancasına qonşuluq etmələrini şərtləndirib. Bu mehribanlıq dövran durduqca, bu qonşuluq durduqca davam edir və davam etməkdədir.

Öncədən qeyd edirik ki, lap qədim zamanlardan bu günümüzədək, heç vaxt gürcü və Azərbaycan xalqları arasında münaqişələr və müharibələr olmamışdır. Sevindirici haldır ki, Azərbaycan və gürcü xalqları arasında təkcə iqtisadi əlaqələr deyil (Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, Bakı-Tbilisi-Ərzurum projeləri buna əyani misaldır), eyni zamanda ədəbi, mədəni, idman sahələrində əlaqələrimiz də sürətlə inkişaf etməkdədir. Bir sözlə, Azərbaycan və Gürcüstan strateji tərəfdaşdır.

Bu yaxınlarda futbol üzrə Avropa liqasının seçmə mərhələsində Tbilisinin “Dinamo” və Azərbaycanın “Qəbələ” komandalarının görüşləri zamanı anlaşılmazlıqlar yaranmışdır. Ümid edirik ki, bu fakt iki dost ölkənin münasibətlərinə və onların idman keçmişinə, hazırkı dövrünə və gələcəyinə xələl gətirməyəcəkdir.

Azərbaycan və gürcü xalqları arasındakı dostluq tellərinin daha da möhkəmləndirilməsində Gürcüstanda yaşayıb-yaradan ziyalılarımızın əməyi böyükdür.

Bu sətirlərin müəllifi də 23 avqust 2003-cü ildə Gürcü-Azərbaycan xalqlarının dostluğunun daha da möhkəmləndirilməsində yüksək xidmətinə görə “Şərəf” ordeni ilə prezident tərəfindən təltif olunmuşdur.

Qarşılıqlı ədəbi əlaqələrimizin bu cür gözəl ənənələrinin tədqiqi yönündə araşdırılması baxımından gürcü ədəbiyyatşünaslarından Aleksandre Xaxanişvili, Aleksandre Baramidze, Korneli Kekelidze, Şalva Nusubidze, Macali Todua, Aleksandre Qvaxaria, Konstantine Paçava, Yeyla Eradze və b. elmi araşdırmaları ilə yanaşı, həm də onların azərbaycancadan gürcücəyə orijinaldan ədəbi tərcümələri yönümündə bəhrəli fəaliyyətlərini qeyd etməliyik.



Əminik ki, bu mehriban münasibətlərimiz, dostluğumuz böyük zaman axarında bundan sonra da zənginləşəcək və möhkəmlənəcəkdir.

Hər iki tərəfdən imkan verməməliyik ki, Azərbaycan və gürcü xalqlarının dərin köklərə malik dostluğuna “kimlərsə” xələl gətirə bilsinlər.

**Bayram Abbasov,**
***Bolnisi rayon bələdiyyəsinin deputatı,***
***“Şərəf” ordeni laureatı.***

# Uşaqların virtual zorakılıqdan mühafizəsi

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin gənclər şöbəsinin təşkilatçılığı ilə "Uşaqların virtual zorakılıqdan mühafizəsi" layihəsinin təqdimatı ilə əlaqədar treninq keçirildi. Tədbiri açan AMM-in gənclər şöbəsinin rəhbəri Nərgiz Əliyeva azyaşlı uşaqların asudə vaxtlarında cizgi filmlərini izlərkən mənfi və müsbət təsirlərindən danışdı. O qeyd etdi ki, bu treninqdən yararlnan gənclər bu məsələni maksimum şəkildə ətrafdakılara yayarsa və ailəsində istifadə edərsə, bu problem nisbətən aradan qaldırılar. “Uşaqların izlədiyi cizgi filmləri bəzən uşaqlara kadr altı mənfi enerji bağışlayır. Bu gün qloballaşan dünyada, müharibələrin artdığı, nifrətin və şərin qalib gəldiyi dünyada uşaqlarımızı sağlam ruhda böyütmək üçün düşünürəm ki, milli cizgi filmlərinə üstünlük verilməlidir, dastanlarımızdan, nağıllarımızdan istifadə olunaraq yeni filmlər çəkilməlidir” – deyə N.Əliyeva vurğuladı.



Layihənin rəhbəri Səid Həmzəyev çıxışında bir sıra əcnəbi cizgi filmlərinin mənfi təsirindən, bu haqda mütəxəssislərin araşdırmalarını misal çəkərək problemin həlli yollarını tədbir iştirakçılarına təqdim etdi. O, qeyd etdi ki, valideynlər ciddi şəkildə uşaqlarının asudə vaxtlarına nəzarət etməli, onlarla daha çox vaxt keçirməlidirlər.

Tədbirdə iştirak edən Gürcüstanın ali təhsil müəssisələrində təhsil alan tələbələr, xüsusən də tibb fakültəsinin tələbələri söhbətə qoşularaq fikirlərini və təkliflərini bildirdilər.

Tədbirin sonunda iştirakçılara tərbiyəvi cizgi filmi nümayiş olundu.

**RegionPress**

# Mahir Dərziyev: *Gürcüstanın təhsil qanunu beynəlxalq standartlara cavab verən, bütün hüquqi ekspertizalardan keçmiş mütərəqqi bir qanundur*

**Gürcüstan parlamentinin deputatı Mahir Dərziyevlə müsahibə**



**– Mahir müəllim, artıq 3 ilə yaxındır ki, təmsil etdiyiniz partiya hakimiyyətdədir. Bu müddət ərzində ölkə daxilndə və xarici siyasətdə gördüyünüz işləri necə qiymətləndirərdiniz?**

– Təbii ki, bu 3 ildə ölkə çox önəmli tərəqqiyyə nail olub. Bu dövrü Gürcüstanın müstəqillik qazandığı son 25 ildə ölkənin demokratiya yolunda əziyyətli, ziddiyyətli inkişafının həm kəmiyyət, həm də keyfiyyət baxımından ən səmərəli dövrü hesab etmək olar. Mən ən böyük nailiyyətimiz kimi insanlara azad danışmaq, azad hərəkət etmək imkanının əldə olunduğunu vurğulayardım. Bunun nə demək olduğunu açıqlamağa ehtiyac duymuram. Sadəcə olaraq, keçmiş iqtidarın fəaliyyətinin "dadını görənlər" bunu şərhsiz başa düşərlər. Tibb sahəsindəki nailiyyətləri iqtidarın çox böyük uğuru hesab edirəm. 3 il bundan əvvəl ağır xəstələr təcili olaraq əməliyyat masası üzərinə keçməli olsa da, pulun ödənilməməsi üzündən həyatını itirərdi. İndi isə ümumi tibbi siğorta vətəndaşlara sağlamlıqlarının qeydinə qalmaları üçün gözəl fürsət verir. Ali məktəblərdə 20-yə yaxın ixtisas pulsuzdur, orta məktəblərdə isə kitablar şagirdlərə sadəcə olaraq hədiyyə edilir. Kənd təsərrüfatında güzəştli kreditlərdən yüz minlərlə vətəndaşımız bəhrələnir. Kənd əhalisinin həyətyanı sahələrinin gübrələrlə, texniki vasitələrlə, təmin olunması və s. – bütün bunlar hamının gözü qarşısında baş verir və danılmaz faktlardır. Ölkədə yeni iş yerlərinin yaradılması üçün əhəmiyyətli tədbirlər görülüb – yüzdən çox yeni sənaye müəssisəsi açılıb, üstəlik, böyük su elektrik stansiyalarının, sənaye müəssisələrinin tikintisinə başlanılıb. Əmək haqqı, pensiyalar artırılıb. Ümumiyyətlə, dövlət büdcəsi getdikcə daha çox sosial yönümlü olub. Bu özünü infrastrukturun yenilənməsində – çəkilən yollarda, ictimai binaların inşasında, müxtəlif zümrədən olan insanlarımıza verilən ayrı-ayrı ödənişlərdə və kompensasiyalarda göstərir.

Xarici siyasətdə Avropa İttifaqı ilə assosiativ sazişin imzalanmasını ən böyük uğurumuz hesab edirəm. Gürcüstanın NATO-ya tam hüquqlu üzv olması üçün də önəmli işlər görülür. Bizim iqtidarın Avroatlantika məkanına inteqrasiya kursu Qərbdəki strateji tərəfdaşlarımız tərəfindən tamamilə dəstəklənir və bu, dönməz prosesdir. Təbii ki, işğal olunmuş torpaqların qaytarılması, işğalın tanınması üçün xarici siyasətimizin önəmli səyləri davam edir.

**– Azərbaycanla Gürcüstan arasında tarixi köklərə malik dostluğun bu günkü səviyyəsi Sizi qane edirmi? Bu dostluğu və strateji tərəfdaşlığı daha da möhkəmləndirmək üçün başqa hansı işlər görmək mümkündür?**

– Gürcüstanla Azərbaycan arasındakı bütün əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini dərin məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm. Gürcüstanla Azərbaycan strateji tərəfdaşdırlar. Hər ikisinin ən böyük problemi ərazi bütövlüklərinin pozulmasıdır. Onlar bütün beynəlxalq qurumlarda və tədbirlərdə bir-birinə dəstək olurlar. Ölkələrimizin dövlət başçıları, liderləri, parlamentləri arasında ən yüksən səviyyədə dostluq və qardaşlıq münasibətləri mövcuddur. İqtisadi əlaqələrimizin miqyasını səciyyələndirmək üçün bircə faktı qeyd edirəm – Azərbaycan Gürcüstan iqtisadiyyatına ən böyük sərmayə yatıran ölkədir. Nəqliyyat, neft-qaz daşımaları sahəsindəki fəaliyyət uğurla davam etdirilir və bu sahədə daha böyük layihələr nəzərdə tutulur. Əlamətdar haldır ki, bu əlaqələr yüksələn xətt üzrə gedir və yeni keyfiyyətlər kəsb edir. Sadəcə olaraq, bir məqamı da qeyd etmək istəyirəm – mədəni əlaqələrimizin səviyyəsi yetərincə yüksək olsa da, biz onu daha dolgun və zəngin görmək istəyirik. Hər iki xalq qədim və zəngin mədəniyyətə malikdir və buna yeni çalarlar qatmaq, qarşılıqlı olaraq tanıtmaq lazımdır.

**– İndi inteqrasiya barədə çox danışılır. Gənclərimizin gürcü cəmiyyətinə qaynayıb-qarışması prosesinin ahəngi sizi qane edirmi?**

– Bir məqam vurğulanmalıdır ki, milli azlıqların cəmiyyətə inteqrasiyası dövlət əhəmiyyəti kəsb edən bir məsələdir. Təbii ki, inteqrasiya deyəndə biz gələcəyimiz olan gəncləri nəzərdə tuturuq. Gürcüstan dövləti özünün azərbaycanlı vətəndaşlarının haqq və hüquqlarının təminatı,həm də onların vətəndaş vəzifələrinin reallaşdıra bilmələri üçün son dövrlərdə böyük işlər görüb. Bu dövlətçiliklə bağlı məsələ olduğuna görə, mən burada keçmiş iqtidar və indiki iqtidar bölgüsü aparmaq istəmirəm. Hazırda 1500-ə yaxın azərbaycanlı tələbə Gürcüstanın ali məktəblərində təhsil alır və təxminən bir o qədər də məzun vardır. Orta məktəblərdə gürcü dilinin tədrisinin səviyyəsi, eləcə də bütövlükdə, təhsilin keyfiyyətinin yüksəldilməsi sahəsində xeyli uğur qazanılıb. Bütün bunların nəticəsindir ki, artıq həm yerli özünüidarə, həm də dövlət qurumlarında gəncliyimiz təmsil olunur. Açıq deyim ki, bu inteqrasiya tempi bir millət vəkili kimi məni hələ qane etmir.

**– Son vaxtlar milli məktəblərin bağlanması ilə əlaqədar çox söz-söhbət gəzir...**

– Bu söz-söhbətlərin heç bir əsası yoxdur. Təhsil hüququ Gürcüstan vətəndaşları üçün Gürcüstanın anayasası ilə və beynəlxalq hüquqla qorunur. Çox təəssüflər olsun ki, milli məktəb məfhumunu bizim icmanın bəzi nümayəndələri bir qədər fərqli cür başa düşürlər. Gürcüstanın təhsil qanunu beynəlxalq standartlara cavab verən, bütün hüquqi ekspertizalardan keçmiş mütərəqqi bir qanundur. Bu qanunda milli azlıqların ana dilində təhsil almaq hüququ tanınır. Bu, şagirdlərə öz istəyi ilə ana dili və ədəbiyyatını öyrənmək hüququndan ibarətdir. Qanunun tələblərinə görə, Gürcüstan tarixi və coğrafiyası, riyaziyyat və təbiət elmləri gürcü dilində tədris olunmalıdır. İndi sual olunur – milli məktəb hansı anlama gəlir? Milli məktəb Azərbaycan dili və ədəbiyyatından başqa digər fənlərin təhsil qanununun tələbləri ilə gürcü dilində tədris olunduğu məktəbdir.

Mən bu məsələdə səmimi olaraq həssaslıq göstərən bütün soydaşlarıma dərin minnətdarlığımı bildirirəm. Dilimiz və mədəniyyətimiz ən böyük sərvətimizdir və biz onu həmişə yaşadacağıq. Bu məsələdə möhtəkirlik edən populist "siyasətçilərə" və "mirzələrə" isə demk istəyirəm ki, dövlətçilik mövqeyində dayansınlar və icmamızın cəmiyyətə inteqrasiyası yolunda ən önəmli vasitə olan təhsilin inkişafında əngələ çevrilməsinlər.

**– Seçicilərin "bu əsl deputatdır" ifadəsini özünüzə nə dərəcədə şamil edərdiniz? Qarşıya qoyduğunuz vəzifələri hansı səviyyədə gerçəkləşdirə bildiniz?**

– Təvazökarlıqdan uzaq da olsa mənə bu sözü, yəni "əsl deputatdır" ifadəsini çox deyiblər. bunun tam əksini deyənlərin olduğunu da bilirəm. Qoy qiyməti xalq versin. Həm də xalq təkcə sosial şəbəkələrdə "veyillənənlərdən" və bələgətlə danışmağı bacaranlardan ibarət deyil. Yenilənən və çəkilən yollar, təmir olunan məktəblər və ictimai binalar, suvarma obyektləri göz qabağındadır. Bir şeyi də tam məsuliyyətlə deyə bilərəm ki, heç bir seçicimin müraciətinə biganə qalmamışam, həmişə onların yanında olmuşam. Deputatın səlahiyyət və imkanlarının sınırlı olduğunu da bilməmiş deyillər.

**– Mahir müəllim, oxucularımıza arzunuz və bir daha Gürcüstan parlamentinə deputat seçilmək istərdinizmi?**

– Mən bir insan olaraq, bütün soydaşlarıma can sağlığı, könül xoşluğu, ruzi-bərəkət arzulayıram. Mənim zəhmətkeş, halal, bacarıqlı soydaşlarım xoşbəxt və ləyaqətli yaşamağa layiq insanlardırlar. İftixar və qürurla qeyd etmək istəyirəm ki, mənim soydaşım artıq öz taleyini Gürcüstanın taleyindən ayrı təsəvvür etmir. Deputat seçilməyimə gəldikdə isə, hələ seçkilərə bir il var. Bu barədə düşünməmişəm. Həmişəki kimi, vəzifələrimin icrası ilə məşğulam.

**– Səmimi müsahibəyə görə Sizə minnətdarlığımızı bildiririk və nəzərinizə çatdırırıq ki, bu günlərdə milli mətbuatımızın 140 illiyini təntənə ilə qeyd etdik. Qəzetçilərə sözünüz?**

– Bütün dəyərli və cəfakeş qələm əhlinin qarşısında baş əyirəm. Milli mədəniyyətimizin və milli kimliyimizin qorunub-saxlanılması yönündə onların fəaliyyətini təqdir edirəm. Və təəssüflə onu da demək istəyirəm ki, onların dəyərini yetərincə verməmişik və onların çoxu dolanışıq, məişət qayğıları məngənəsindədir. Dövlət də onlara kifayət qədər diqqət yetirə bilmir. Onu da bildirirəm ki, Gürcüstanda milli mətbuat qıtlığı hissi olunurdusa, indi qəzetlərin, dərgilərin sayı yetərincədir. Milli jurnalistikamızın inkişafında müstəsna yeri olan qədim Tiflis bu gün də öz əhəmiyyətini saxlayır. Mən bütün jurnalistlərə fəaliyyətlərində uğurlar arzulayıram.

*Söhbəti yazdı:* **Binnət Əlioğlu**

# Təkayaq

## *(izomorfizm)*

Şagirdlərə şişirdilmiş qiymətlər yazan müəllimlər həmişə əslində pambıqla baş kəsiblər. Guya fənlərin mənimsənilməsi yüz faizdir, guya bu tərəflərin təlimində geriqalma yoxdur və sairə və ilaxır...

Amma sözüm bunda deyil. Sözüm mənim keçmiş məktəbimdəki tənbeh üsullarındadır.

Biz falaqqa görmədik, amma çubuq gördük. Bir də bizdə çəza növü olaraq "müqəssir" şagirdləri təkayaq üstündə saxlamaq var idi. Yaxşı yadımdadır. Bizimlə paralel sinifdə kimləri təkayaq üstündə dayanmağa məcbur edirdilərsə, onlar çox uzaq getdilər; var-hal sahibi oldular, həmişə diqqət mərkəzində dayandılar.

Mirzə Qələm də, mən də bir dəfə də olsun təkayaq üstündə dayanmadıq. Amma hayıf! Məsələn, iki dərsə görə – "İngiltərədə çəpərləmələr" və "Rusiyada təhkimçilik hüququ" dərslərini bilmədiyinə görə sinfin yarıdan çoxu təkayaq üstündə dayanmalı olmuşdu. Xatalı kimi dərslikdə bu dərslərin biri ilə bağlı təkayaq üstə dayanmış yoxsulun karikaturası da verilmişdi; yəni həmin dövr İngiltərəsində də, həmin dövr Rusiyasında da kasıblar öz ikinci ayaqlarını qoymağa yer tapmırmış: hər yer ağalar və bəylər (dərslikdə burjuylar və kapitalistlər) tərəfindən elə çəpərlənib, elə tutulubmuş... Həttə şahlıq quşunun kasıbın başına qonmaq şansı üçün də yer qalmayıbmış: çünki kasıbın bədəninə ağırlıq edən başı cəllad kötüyündə imiş. Yaxşısı budur, bir az da uzaqlara gedim...

İngiltərə ilə bağlı "qoyunlar adamları yeyir" ifadəsini elə arazbarı əzbərləmişdik ki, arada-sırada öz qoyunlarımıza da məlul-məzlum Panurq sürüsütək baxırdıq. Çəpərləmələr dövrü İngiltərəsində əmrə müntəzir dayanmayan yoxsulları – Yaradanın bu günahsız dostlarını – səfillər, avaralar adıyla kütləvi edam edirmişlər. Həttə XVI əsrdə edama baxmağa gedənləri indiki dövrdə "Çelsi"nin oyununa gedənlərlə müqayisə edən müəllimimizə də şübhə ilə baxanlarımız olurdu. Sən demə, bu gün dünyaya etika və estetika dərsləri keçən İngiltərədə vaxtilə təkayaq üstündə üstündə dayanmağa məcbur edilənlərin qanı oralarda leyboristləri, buralarda biz əkinçiləri indinin özündə belə, beymürvət tuta bilirmiş!



Müxtəsəri, məktəbdə təkayaq üstündə durmaq məcburiyyəti həyatda təkayaq üstündə dayanmağın yanında toy-şan imiş. İndi Süsən-Sünbüldəki (və düzü-dünyadakı) kasıbların sayına baxsaq, çox adamın əslində təkayaq üstündə dayanmaq, nəinki dayanmaq, həttə yaşamaq məcburiyyəti də anlaşılandır...

Təkayaq – yəni təkcə sabaha deyil, həm də bu günə ümidsiz, təkayaq – yəni az qala çəpərləmələr və təhkimçilik hüququ dövrünün adamı, təkayaq – yəni bir həsir, bir Məmmədnəsir ("İPhone" markalı mobil telefonuna baxmayın), təkayaq – yəni vilayəti cəhənnəm, vicdanı cənnət, təkayaq – yəni qışın oğlan çağında təkpəncə dayanan və sabah kəsiləcək qaz, ya da ördək misallı...

Dünən Mirzə Qələmdən eşidəndə ki, yaponiyalı milyarder Haruki Murakami (dünyalarca məşhur yazıçı ilə ad və soyad eyniliyi təbərrük təsadüfdür) təkayaq üstündə davamlı dayanmaq məşqləri keçir, onda çox təəccüb etdim. Dedim bəlkə göbək yağlarını əritmək üçün qaydalara əməl edir, bəlkə Ginnesin Rekordlar Kitabına (The Guinness Book of Records) düşmək istəyir, bəlkə sadəcə olaraq məktəb illərinin cəza, töhmət və tənbeh üsullarını xəyalında yenidən canlandırmaq istəyir.

Sən demə, təkayaq üstündə ancaq sağlam adam dayana bilirmiş. Sən demə – yenə də yapon alimlərinə görə – əgər adam təkayaq üstə 20 saniyədən artıq dayana bilmirsə, deməli, onun xırda beyin damarlarında koqnitiv funksiyaların pozulmaları var; yəni təcili olaraq nevroloqun qəbuluna yazılmalıdır. Axı bütün hallarda insult və infarkt təhlükəsi aradan qaldırılmalıdır.

Hərdən-hərdən TRTSpor televiziya kanalında əlil idmançılar arasında futbol üzrə Türkiyə çempionatına – ucqarda ürək ağrısı ilə – da baxıram. Bu təkayaqlı, amma az qala "ikiürəkli" oğulların iradə və əzmkarlığına heyrət edə-edə öz vaqiflər anladığı mənada olan "təkayaqlı"lığımın xəcilliyi məni dara çəkir... Arada-sırada bədənimə ağırlıq edən başımı ayaqlarıma doğru əyilir: ayaqlarıma sanki çilik-çilik şüşələr üstündə yeriyən Şuşanın şüşəsi batıb.

**P. S.**

***İndi bütün sosial ədalət əskikliklərinə rəğmən, çəpərləmələr və təhkimçilik dövrlərindən çox keçib. Amma "təkayaq" üstə dayanmağa məcbur olanların sayı arazbarı azalmaq əvəzinə, artmaqda deyilmi? Günbəgün çoxalan münaqişə zonalarında ayağını itirən qoltuq ağacları hələ saya salmıram.***

***Burasını da deyim ki, dinimizdə ayaqüstə dayanmağın "təkbirətül-ehram" anına qiyam deyilir. Yox-yox, Əyriqarın ətəklərinə yaxın nə Mirzə Qələmin, nə də mənim – "təkayaq" həyat tərzimizə rəğmən – qiyam eləməyə gücümüzmü var?..***

***Hazırda İngiltərədəki "Al qızılgül və ağ qızılgül müharibələri"nin tarixini gözdən keçirməklə məşğuluq. İstəsəniz bəzi məşğulluq mərkəzlərinə siz də yazılın...***

***....amma Sınıq körpünün bəri üzündə, Əyriqarın ətəklərinə yaxın "Təkayaq" heykəli yapmaq təklifi Mirzə Səməndərin yox, Mirzə Qələmin təklifidir.***

**İbrahimxəlil**

# Professor Əliyar Qarabağlı haqqında xatirələrim

"RegionPress"-də ilk dəfə

***Əliyar Qarabağlı mürşidi - əzəm, ən görkəmli, ən böyük yol göstərən idi.***

**M.H.Təhmasib**

**Tanışlığım:** 1961-ci ilin dekabr ayının son günləri idi. İndiki Azərbaycan Pedaqoji Universitetində qiyabi təhsil alırdım. Bakıya qış sessiyasına getməliydim. Bolnisi RXMŞ-nin (rayon xalq maarif şöbəsi) pedkabinetinin müdiri, mərhum Məhyəddin Sultanov yeni il qabağı bayram sovqatını ADU-nun dosenti Ə.Qarabağlıya çatdırmağı xahiş etdi, ünvanını da verdi. Bakıya çatan günü axşam mehmanxanadan ünvana zəng çaldım. Zəif səsli bir kişi cavab verdi. Salam-kəlamdan sonra öz kimliyimi və gətirdiyim sovqatı ona çatdırmaq istədiyimi bildirdim. O, çox mehribancasına: "Xoş gəlmisiz, göndərən də sağ olsun, gətirən də, buyurun gəlin, səni gözləyirəm," – dedi.

Mən ünvana getdim. Qapını xoş simalı bir kişi açaraq: –Buyurun, – dedi. Məni çox yaxın qohumu kimi qarşıladı. Sovqatı yerə qoyan kimi dərhal qayıtmaq istədim. O isə paltonu çıxarmağı xahiş etdi. Özü paltonu asılqandan asıb mənə yer göstərdi. Dərhal özü stola çay gətirdi, əyləşdi. Mənə: – Molodoy çalavek, çay iç, üşümüsən, canın isinsin, həm də Borçalıdan danış. Məhyəddin necədir? – deyə suallara tutdu. Elə bil əlinə dəyərli bir tapıntı düşüb. Sonra harada oxumağımla maraqlandı. Birdən qalxıb mətbəxə keçdi, iki qab xörək gətirdi, yeməyi təklif etdi. Onun iştahla yeməsi məni də iştaha gətirdi. Qısa bir vaxt ərzində mənə elə bir yaxınlıq, mehribanlıq göstərdi ki, sanki mən onun doğma əziziyəm. Ayrılmaq istəmirdim, ancaq gecə idi, getmək lazım idi. Razılığımı bildirib ayağa qalxdım. O: – Molodoy çalavek, telefon səndə var, tez-tez mənə zəng vur, mənlə əlaqəni kəsmə, bu gündən sən oldun mənim dostum. Nə vaxt kömək lazım olsa, utanma, mənə zəng et, yaşadığın ünvanda telefon varsa mənə bildir.

Sağollaşıb çıxdım.

Səhəri gün qismətdən kirələdiyim evdə telefon da oldu, nömrəni o nadir insana bildirdim. Onu da qeyd edim ki, on günlük sessiya müddətində Əliyar müəllim dörd dəfə vəziyyətimlə maraqlandı, hər dəfə də məni evə dəvət etdi. Hər görüşdə daha da yaxınlaşdığımı hiss etdim. Zaman keçdikcə dostluğumuz daha da möhkəmləndi, doğmalaşdıq. APİ-nin müəllimi olmasa da daima mənimlə maraqlanırdı.

Istirahət günləri məni evə dəvət edər, sonra isə bulvara, şəhərin tarixi abidələrinə, muzeylərə baxmağa aparar, özü hər şey haqqında mənə məlumat verərdi. Milyonçu H.Z.Tağıyev, Musa Nağıyev haqqında, onların tikdirdikləri binaların tarixi və onlar haqqında olan maraqlı əhvalatlar danışardı. Xüsusən S.Vurğun, M.Müşfiqlə (onunla pedaqoji institutda təhsil almışdı – T.A.)

Sonra isə yemək vaxtı gələndə zarafatla deyərdi: – Molodoy çalavek, çayxana xərci mənim, restoran xərci sənin, sözündən dönən...

Mən onun şirin, dadlı, duzlu, hərdən məzəli, gülməli söhbətlərinə heyran olurdum. Rəhmətlik o qədər istiqanlı, xalq üçün alışıb yanan, xalqı, Vətəni sevən bir insan idi ki, mən hələ belə hər şeyin qədir-qiymətini bilən insan görməmişəm. Onun bu dəyərli xususiyyətlərini bilən mərhum və məşhur alim Abbas Zamanov xatirələrində yazır: " Əliyar Qarabağlı mənəviyyatca təmiz, pak, istiqanlı, yapışqanlı, öz sənətini qəlbən sevən və qarşısındakına sevdirən bir müəllim, alim idi." (B.Bağırov, "Ə.Qarabağlı – 100" Gəncə, 2001).

Bir dəfə soruşdum: – Müəllim, Borçalıya nə vaxt gələcəksiz?.. Gəlin, mən də Sizin qulluğunuzda durmağı özümə şərəf sanaram. Dedi: Təhməz, 40 ildir ki, doğma torpağa, suyunu içib, havasını udduğum kəndə – Lejvəddinə getmirəm. Bunun obyektiv və subyektiv səbəbləri çoxdur. Orada qardaşlarım, qohumlarım var, onlar bura gəlirlər, görüşürük. Sağlıq olsun, Borçalıya gedəcəyəm, orada çoxlu dostlarım, dərs dediyim tələbələrim var, mütləq sənə də qonaq olacağam. Sən əmliyi hazırla.

Nəhayət, 1965-ci ilin oktyabr-noyabr ayları olardı. Yağışlı, çovğunlu gün idi. M.Sultanov xəbər verdi ki, Əliyar müəllim sabah bizdə olacaq, ancaq bu havada sənə qonaq ola bilməyəcək. Vəziyyəti belə biləndə söz verdim ki, sabah bir erkək kəsəcəm və kənddə yuxa (fətir) bişirtdirib gətirəcəm. Dediyim kimi də etdim. Aşıq Əmrah və Kamandar da orada idi. On nəfərlik xudmani məclis keçirdik.

Təxminən 1966-cı ilin baharı idi. Eşitdim ki, Qazağa S. Vurğuna həsr olunmuş sessiyaya gəlib. Bunu eşidən Əflatun (Prof. Şəmistan Mikayılovun qardaşı) onu Faxralıya aparıb. Bir gündən sonra Bakıya qayıdıb. Mən ona məktub yazıb küsdüyümü bildirdim. O isə cavab məktubunda bu il yenə Borçalıya gedəcəyini və mütləq mənə qonaq olacağını yazmışdı. Elə həmin ilin avqustunda Göygöldən mənə məktub yazdı, bir neçə gündən sonra ailəliklə qonağım oldu. Əziz qonağın şərəfinə meşədə, bulaq başında quzu kəsildi, samavar qaynadı, Aşıq Əhəd öz sazı, söhbəti ilə müəllimin könlünü şad etdi. Aşığa da dəyərli məsləhətlər verdi.

Bu görüşdən rəhmətlik xüsusi zövq aldı. Qardaşım isə onun qulluğunda durur, hətta motosikletə mindirib dağlara qaldırır, meşə yiollarında gəzdirib gətirirdi. Bu qayğıkeşliyi görən Əliyar müəllim məni kənara çəkib soruşdu: – Təhməz, qardaşın nə işə baxır, təhsili nədir? Niyə ali təhsil almır? Suallarına cavab olaraq dedim ki, imkanımız yoxdur, Gəncədə Kənd Təsərrüfatı İnsitutuna elə-belə qəbul olmaq mümkün deyil. O, bir az səsinin tonunu dəyişərək dedi: – Bəs sən nə üçün bu vaxta qədər mənə heç nə deməmisən?.. İndi, elə bu il qəbul imtahanlarına on gün qalmış qardaşını sənədləri ilə birlikdə mənim yanıma gətir. Sonra Cümşüdü də çağırıb bu tapşırığı verdi.

Növbəti qəbul imtahanı başlamağa az qalmış Bakıya getdik. Zəng vurdum. Evə dəvət etdi. Görüşdük. Yeməkdən sonra iş otağına keçdi. Az vaxt keçdi, əlində dörd dənə zərf və dörd yazılı vərəq gəlib əyləşdi. Məktubların üstünə dörd tanınmış görkəmli şəxsin ünvanını, telefonunu yazıb qardaşıma verdi. Mənə də dedi ki, sən bu saat get, Gəncə qatarına bilet al, bu getsin, sabah məktubları ünvanlarına çatdırsın və sənədlərini qəbul komissiyasına verib qəbzini alsın. Cümşüdə də dedi ki, mənə də zəng vur, nə etdiyini mənə bildir, tez-tez də əlaqə saxla, vəziyyətin hansı məcrada olduğunu mən bilim.

Elə həmin gecə qardaşımı Gəncəyə yola saldım.

Həmin məktublardan birinin məzmunu Prof. Bağır Bağırovun "Əliyar Qarabağlı – 100 " kitabında öz əksini tapıb. O yazır: " Əzizim Bağır, salam! Bu məktubu sənə təqdim edən Cümşüd mənim yaxın qohumumdur (əslində qohumluğumuz yoxdur – T.A.), özü də həddindən artıq istedadlıdır. Kənd təsərrüfatının pərvanəsidir. Hazırladığı şərabın rəngi də, dadı da adamı valeh edir. Bu sahədə ali təhsil almaq istəyir. Imkanın daxilində ona kömək edəcəyinə əminəm. Əzizim, bu şərab məskənində – Gürcüstan torpağında bizim də öz ali təhsilli mütəxəssisimiz olsun! Səmimiyyətlə: Əliyar müəllim."( Prof. Bağır Bağırov "Əliyar Qarabağlı – 100 ", kitabı, Gəncə - 2001, səh.60).

Bu xeyirxah insanın – Ə. Qarabağlının məktubları öz təsirini göstərdi. Cümşüd qəbul olunub ali təhsil aldı. Bax, budur əsl insanlıq, unudulmaz yaxşılıq.



Bakıya tez-tez gedirdim. Əliyar müəllim "Sovet Gürcüstanı" qəzetinin abunəçisi idi, daim qəzetin fəaliyyətini izləyirdi. Görüşümüz zamanı qəzet haqqında müsbət fikirlər söyləyirdi. Bir dəfə söhbət əsnasında soruşdu: – Molodoy çalavek, borçalıların qəzetə abunəçi olmaları məsələsi necədir, bir müəllim kimi səni razı salırmı?..

Mən də bu işin əhalimiz tərəfindən həvəslə yerinə yetirildiyini, hətta yuxarı sinif şagirdlərinin də abunəçi olduğunu ona bildirdim. Çox şad oldu, razılığını bildirdi. Sözünə davam edərək dedi ki, unutma, qayıdanda bizə gəl, sənə bir məktub verəcəm, "Sovet Gürcüstanı" qəzetinin redaksiyasına çatdır, Novruz bayramı haqqında yazmışam, dərc olunanda oxuyarsan.

Məktubu gedib götürdüm. Tiflisdə qatardan düşən kimi redaksiyaya getdim, zərfi məktublar şöbəsinə verdim. Məqalə qəzetin 13 may 1967-ci il tarixli nömrəsində "Sağlam adət, ənənə və məişətimiz uğrunda" adı altında dərc olunmuşdu (Qəzet mənim arxivimdədir). O totalitar dövrü belə bir yazı ilə çıxış etmək böyük cəsarət və qeyrət tələb edirdi.

Tələbəlik zamanı idi. Hərdənbir dram teatrına gedirdim. Bir gün böyük dramaturq C.Cabbarlının "Oqtay Eloğlu" dramına baxdım. Tamaşa məni culğalamışdı. Növbəti günlərin birində yenə həmin əsərin afişasını gördüm. Zəng vurub Əliyar müəllimə bildirdim ki, vaxtınız varsa gedək, Siz də tamaşaya baxın. Dərhal dedi ki, lap yaxşı, get ön cərgəyə bilet al, həmin günü zəng vur birlikdə gedək, Cabbarlıya mənim böyük hörmətim var.

Gedib birinci cərgəyə yox, ikinci cərgəyə biletləri aldım. Tamaşa günü axşam birlikdə getdik, yerimizdə əyləşdik. Birdən o, yerindən qalxıb foyedə oturan ağ saçlı, qarabəniz qadınla görüşdü, az söhbətdən sonra gəlib əyləşdi. – C.Cabbarlının ömür-gün yoldaşı Sona xanım və övladlarıdır, – dedi.

Bu anda düz qarşımızda, birinci sırada bir kişi, qadını ilə əyləşdi və dərhal arxaya nəzər saldı. Ayağa durub Əliyar müəllimlə əl tutdu, söhbətə başlamadan xahiş etdi ki, biz 1-ci sıraya, onlar isə arxaya 2-ci sıraya keçsinlər. Əliyar müəllim etiraz etsə də, həmin şəxs qadını ilə bizim yerimizə keçdi. Tamaşa başlayana qədər onlar yaxın həmkar kimi söhbət etdilər. Ona "Əli müəllim" deyə müraciət edirdi.

Tamaşa başladı. Rəhmətlik çox diqqətlə baxır, həyəcanlanır, şad da sevinirdi. Tamaşa qurtardı, qalxdıq. Əli müəllimlə birlikdə teatrdan çıxdıq. Onlar azca söhbət edib xudahafiszləşdilər. Biz isə asta-asta yolumuza davam etdik. Soruşdum: – Əliyar müəllim, o kim idi? Cavabı: – Əli Fəhmidir, iranlıdır, ADU-nun şərqşünaslıq kafedrasının müəllimidir, "Qurani-Kərim" i əzbər bilir. O, Azərbaycanın günəşidir, dahi bir şəxsiyyətdir. Ərəb-fars dillərini gözəl bilir və s. sual-cavablarla mənzilə çatıb xudahafizləşdik.

Dövlət imtahanlarını vermək üçün Bakıya getdim. Həmişə olduğu kimi əvvəlcə o ulu insanla görüşdüm. Mənə ürək-dirək verib müvəffəqiyyət arzuladı: – Əminəm ki, yaxşı qiymətlərlə qurtaracaqsan. Mən səni yaxşı tanıdığım üçün əmin olduğumu deyirəm. Özü də hər imtahandan çıxandan sonra zəng et, bizə gəl.

Onun tapşırığına belə də əməl edirdim.

Bütün imtahanları yaxşı qiymətlə qurtarıb onlara getdim. Məni öpdü, təbrik etdi: – Sən çox yaxşı müəllim olacaqsan, buna əminəm, mütləq bunu gələcək göstərəcək, – dedi. Sonra adəti üzrə süfrəyə yemək- içmək gətirdi, uğuruma sevindiyimi bildirib qədəhlərə konyak süzdü, nuş etdik. Son məqamda pijamasının cibindən bir zərf çıxardıb mənim qarşıma qoydu, oxu! – dedi. Oxudum, xətti tanıdım. Məndən tər axmağa başladı, məktub anonim idi. Mənim haqqımda böhtan, çirkab dolu cümlələr yazmışdı. Hətta mənim evimdə müxtəlif zamanlarda qonaq olan alimlərin bir-bir adlarını göstərmişdi. Hətta Əliyar müəllimin də.

Əliyar müəllimə hər şeyi gizlətmədən danışdım. Başını buladı, təəssüfləndi, belə müəllimdən xalqımız nə qazana bilər? – dedi.

Mən donub qalmışdım. Bu anonim məktub ona necə çatmışdı? – təəccüblü idi. Soruşdum. Sənə dəxli yoxdur, – cavabını aldım. Susdum. Get, elənçi adamlara qoşulma, o şəxs xəstədir, ya da gec-tez ağır xəstəliyə tutulacaq. Xainləri, paxılları dərd içindən çürüdür. Paxıllıq sağalmayan xəstəlikdir. O adam ölənəcən elə də qalacaq.

Yenə bir xatirə: İxtisasımı dəyişmək məqsədilə ADU-ya getdim. Təsadüfən dostum, həmyerlim dosent Mahal Məmmədovla rastlaşdım. Məqsədimi bildirdim. Məni ADU-nun prorektorunun (qadın idi, adını unutmuşam) otağına apardı. Söhbətdən sonra prorektor razılığını bildirərək fərq imtahanları da verəcəyimi dedi. Dərhal sevincək zəng vurub Əliyar müəllimin görüşünə getdim, niyyətimi bildirdim. Kişinin siması dəyişdi, ciddi bir görkəm aldı. Hirsləndiyini lap yaxşıca duydum. Mənə tərs nəzər saldı.

Soruşdu: – Sən nə üçün müqəddəs peşəni dəyişib qanun pozanlarla işləmək istəyirsən?

Cavab vermədən başımı günahkar kimi aşağı saldım. O isə davam etdi. Sən savadlı, qabiliyyətli müəllimsən. Əvvəllər elmi rəhbərin olmağa da söz verdim, gəlmədin. Indi də hüquqşünas olub dələduzlarla işləmək istəyirsən?

Get, saf insanlar tərbiyə et ki, milisə, hüquqşünasa ehtiyac olmasın. Cəmiyyəti sizin kimi müəllimlər yetişdirməli, tərbiyə etməlidir. Sən isə gül kimi peşəni gör nəyə dəyişirsən? Sən fikrindən dönməsən mən sabah rektorla görüşüb sənin ixtisas dəyişmənə imkan verməyəcəyəm. Boş yerə vaxtını itirmə.

Onun bu məsləhətinə "baş üstə" deyib sağollaşdım, geri döndüm. Bax, ona görə də hər zaman onu "mürşüdü-əzəm, ən böyük yol göstərən" adlandırıblar.

Əliyar müəllim haqqında çox yazmaq olar. Ancaq bunları bir qəzet məqaləsinə yerləşdirmək qeyri-mümkündür. Onun məzəli, gülməli ifadələrindən birini qeyd etməyi lazım bilirəm. O, kiminsə bir nöqsanını, səhvini görəndə məsləhət edər, yol göstərər, bəzən də mehribancasına tənqidə yol verəndə, ya tənqidi azca tünd olanda əlini müsahibinin çiyninə qoyar, həlim səslə deyərdi: – Maladoy çalavek, sözdü, elə-belə dedim də, beyninə batanını götür, qalanını tulla.

Prof. Abbas Zamanov yazmışdı: "Əliyar Qarabağlı kimi şəxsiyyətlər ölmürlər, onlar dünyalarını dəyişir, əbədiyyətə qovuşurlar. Onlar... həmişə ruhən bizimlə birlikdədirlər."

Əliyar müəllim maarif fədaisi idi. 50 illik pedaqoji fəaliyyəti dövründə Camal Mustafayev, Bağır Bağırov, Abbas Səmədov, Şəmistan Mikayılov və digərləri kimi alimlər yetişdirmişdir. Artıq indi də onun adı, sözü, söhbəti, Azərbaycan ədəbiyyatı, maarifi, elmi aləmində dəyərli xidməti yaşayır, yaşayacaq da.

1969-cu ilin 1 May günü qara xəbər gəldi. Gecə təyyarə ilə Bakıya çatdım. O, sakit uyuyurdu, əbədilik yuxuya getmişdi. Səhəri, dəfn günü görmədiyim insan izdihamı gördüm. ADU-nun Akt zalında növbəyə dayanıb fəxri qaravulda durdum. Zalda Abbas Zamanov, Pənah Xəlilov, Əziz Əfəndizadə çıxış edərkən ağlamaqdan özlərini saxlaya bilmədilər. Ikinci Fəxri Xiyabanda Bağır Bağırov da hönkürüb ağladı. Məzar əklillər içində görünməz oldu.

Dəfndən bir gün sonra Əhəd Hüseynov, Mahal Məmmədov və mən onun arxivini səliqəyə saldıq. Yenicə yazılmış bir məktub diqqətimizi çəkdi. Rəhmətlik məktubu Moskva Lomonosov adına Universitetin professoru Əziz Şərifə ünvanlamışdı. Həmin məktub Aşıq Ələsgərin savadı, təhsili barədə idi. O, sübut edirdi ki, Aşıq Ələsgər təhsil görməmiş deyil.

Mən də bu böyük, dəyərli insanın qırxında, ilində iştirak etdim, övladlarına təsəlli verdim, imkanım daxilində öz borcumu yerinə yetirdim. Ruhu şad olsun, qəbri nurla dolsun.

Bu yerdə S.Ə.Şirvaninin Əliyar müəllimə yaraşan bir beyti ilə yazını tamamlayıram. Çünki onun yeri, adı bu gün də ədəbiyyat, maarif aləmində hörmətlə anılır və tariximizdə qalır.

*Mövti-cismani ilə sanma mənim ölməyimi,*
*Seyyida, ölmərəm, aləmdə səsim var mənim.*

**Təhməz Abbasov**
***filoloq***

# Məktəbin uğurlu illəri

***Artıq bir neçə tədris ildir ki, Tbilisi şəhər M.F.Axundov adına 73 saylı ümumi Azərbaycan məktəbi, nəinki paytaxtda fəaliyyət göstərən 218 məktəb sırasında, hətta Gürcüstan miqyasında bir sıra tədris göstəricilərinə görə liderliyi əldən vermir.***

Statistik göstəricilərə nəzər salsaq, biz buna əmin olarıq, çünki 2013-2015 tədris illərində məktəbin buraxılış sinfinin şagirdləri kəsirsiz olaraq orta məktəb attestat imtahanlarını müvəffəqiyyətlə vermişlər. Bu illərin məzunlarından 2013-cü ildə 6 nəfərdən 5 nəfəri, 2014-cü ildə 9 nəfərdən 6-sı, 2015-ci ildə 18 nəfərdən 17-si ali məktəbə qəbul olub, şərəfli tələbə adına layiq görülüblər. Onların əksəriyyəti dövlət qrant tələblərini ödəmişlər.

Məktəbin direktoru Salman Pirməmməd oğlu bildirir ki, belə göstəricilərə nail olmaq pedaqoji kollektivin gərgin əməyi və məqsədəuyğun səmərəli işinin nəticəsidir. Təsadüfi deyil ki, məktəb son illərin nəticələrinə görə Gürcüstan Təhsil Nazirliyi sistemində lider məktəb kimi tanınır. Bu nəticəyə çatmaq o qədər də çətin deyil, buna hər bir şəxs məsuliyyət daşıyıb öz müəllimlik borcunu layəqətlə yerinə yetirməklə nail ola bilər; çətini birinciliyi saxlamaqdır.

Məktəbin şagird kontingenti bu tədirs ilində 200 nəfər olmuşdur, onların təlim-tərbiyəsi ilə 23 ali savadlı müəllim məşğul olur. Şagirdlər ötən tədris ilində dövlət və şəhər miqyasında fənn olimpiadalarının, viktorina və yarışların fəal iştirakçıları olub, qələbə qazanmışlar. Məktəbin builki məzunu Leyla Kərimova gümüş medala layiq görülmüşdür. O, dəfələrlə Təhsil Nazirliyi tərəfindən mükafatlandırılmışdır. Gürcü və xarici dil fənn olimpiadasında məktəbin şagirdləri öz gürcü həmyaşıdlarını çox geridə qoyub, qalib adı ilə məktəbə üz tutmuşlar. Şagirdlərimizdən təşkil olunmuş komanda üzvləri Marneulidə keçirilən universal regional yarışın qalibi olub, birinci dərəcəli diplomlar alıb. Komanda birinci yer tutub, yarış kubokunun sahibi olmuşdur.



Məktəbin şagird kontingetinin coğrafiyası çox genişdir, burada Tbilisidən, Kvemo Kartlinin bütün rayonlarından, Kaxeti, qonşu Azərbaycan Respublikasından və hətta Rusiyadan gələnlər təhsil alırlar.

Məktəbdə tədris prosesinin yüksək səviyyədə keçməsində və düzgün pedaqoji tələblər əsasında dərs cədvəlinin tərtib olunmasında tədris işləri üzrə direktor müavini Aidə Tanrıverdiyevanın böyük əməyi və xidməti vardır. Burada şagirdlərin yaş və psixoloji xüsusiyyətlərinin nəzərə alınması, pedaqoji metod və üsulların düzgün istiqamətləndirilməsi və ona əməl olunması, bir növ tədris prosesinin müvəffəqiyyətlə nəticələnməsinin təməlidir.

Məktəb Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir olunmuş və maddi-texniki bazası yeniləşmişdir. Məktəbin fənn laboratoriyaları yeni avadanlıqla zənginləşdirilmişdir. Şagirdlərin estetik və mənəviyatca formalaşmasına xüsusi diqqət verilir. Məktəbdə qocaman, böyük pedaqoji təcrübəyə və yüksək mənəvi dəyərlərə malik olan müəllimlər vardır. Tinatin Hacılarova, Tamam Əliyeva, Kamalə Əkbərova, Sevda Allahverdiyeva, Leyla Babayeva öz bilik və bacarıqlarını gənc müəllimlərə verməyə həmişə hazırdırlar. Üç əsrlə üzləşmiş məktəbin tarixi adını ucaldan onun zəngin adət-ənənələrini layiqincə davam etdirən müəllimlər də vardır ki, onlar öz səmərəli pedaqoji fəaliyyətləri ilə məktəbin adını ucaldır, onun uğurlu gələcək təlim həyatını təmin edirlər. Rəna Abdullayeva, Arzu Həsənova, Xalidə Cikidze, Natiya Usenaşvili, Maya Muzaşvili və başqaları belə müəllimlərdəndir.

Məktəb yeni tədris ilinə tam hazırdır, tədrislə bağlı dərs ləvazimatları qaydaya salınmışdır.

Yeni tədris ilinin başlanması münasibəti ilə Tbilisi şəhər M. F. Axundov adına 73 saylı ümumi Azərbaycan məktəbinin müəllim və şagird heyəti adından bütün məktəblərin müəllim və şagirdlərini təbrik edib, onlara can sağlığı, uğurlu və müvəffəqiyyətli təhsil ili arzulayırıq.

**Qəhrəmanlar**

# Müəllimin güzgüsü şagirddir



Şərəfli müəllim adını daşıyan, uşaqları böyük məhəbbətlə sevən Tükəzban Babayeva uzun müddətdir ki, gül qoxulu uşaqların təlim-tərbiyəsi ilə məşğul olur, biliyi, qabiliyyəti, xalqa məhəbbəti və yüksək pedaqoji ustalığı ilə həmişə sayılıb seçilir. O, işlədiyi müddətdə həmkarlarının, şagirdlərin və ictimaiyyətin dərin hörmətini qazanmışdır.

Tükəzban Almaz qızı Babayeva 1952-ci ildə Marneuli rayonunun Kəpənəkçi kəndində zəhmətkeş mexanik ailəsində doğulmuşdur. O, 1959-cu ildə Kəpənəkçi orta məktəbinin birinci sinifinə getmiş, 1962-1963-1964-cü tədris illərində Marneuli internat məktəbində oxuyub, üç ildən sonra öz doğma məktəbinə qayıdıb təhsilini davam etdirib, 1969-cu ildə orta məktəbi bitirib, həmin il Azərbaycan Xarici Dillər İnstitutunun alman dili fakültəsinə daxil olub. 1974-cü ildə həmin institutu yaxşı qiymətlərlə bitirib, doğma kəndinə alman dili müəllimi təyin olunub. 2012-ci ilə kimi həmin fənni tədris edib, hal-hazırda isə məktəbdə dil-ədəbiyyat müəllimi işləyir.

Tükəzban Babayeva Marneuli internat məktəbində oxuyarkən humanitar fənlərə xüsusi maraq göstərərək fənn müəllimlərinin rəğbətini qazanmışdır. O, eyni zamanda məktəbin mədəni-kütləvi tədbirlərində fəal iştirak edər, bu məktəbdə olan nizam-intizam, hər bir şagirdin oxumasına və tərbiyəsinə yüksək təsir göstərərdi. (Hal-hazırda həmin polad nizam-intizam məktəbin rəhbərliyi və müəllimləri tərəfindən qorunub saxlanılır). İnstitutda oxuyarkən seminarlarda fəal iştirak etməyi həm tələbə yoldaşlarının, həm də müəllimlərin hörmətini qazanmışdır.

Tədris ilinin ilk günlərindən, o, hər bir şagirdin ilk öncə, tərbiyəsinə, əxlaqına və təliminə diqqətlə yanaşmağa başladı. Ali məktəbdə qazandığı bilikləri şagirdlərinə öyrətməklə özündə bir qürur hissi duyurdu. Müasir dərsə verilən tələblərdən bacarıqla istifadə edən Tükəzban müəllim hər dərsə struktur seçməyi qabaqcadan planlaşdırır. O, deyir ki, "keçilən mövzular pedaqoji və metodik cəhətdən elə qurulmalıdır ki, şagirdlər onu sinifdə öyrənsinlər". O, sinifdə şagirdləri qruplara bölməklə şagirdlərin sərbəst halda işləməsinə şərait yaradır. O, tez-tez siniflərdə test üzrə sorğular təşkil etməklə şagirdlərin fənnə marağını artırır.

Tükəzban müəllim deyir ki, "gərək dərs dediyin şagird səni əvvəlcə bir insan kimi sevsin, sonra da müəllim kimi. Bu əsl xoşbəxtlikdir".

Bəli, Tükəzban Babayeva öz şagirdləri tərəfindən bir insan və müəllim kimi sevilən xoşbəxt müəllimlərdəndir.

May ayında mən məktəbdən gəlirdim, yolda məktəbdən gələn şagirdlər məndən irəlidə gedirdilər. Hər şagird öz müəllimləri haqqında fikirlərini bir-birinə bölüşdürürdülər. Gülçin adlı şagird Tükəzban müəllim haqqında necə sevinəsevinə danışırdı:

"Tükəzban müəllimin dili çox sadədir. O, dərsi danışanda (izahda) birdən dayanır, biz onun arxasını deyirik. Və təzə dərsi sinifdə öyrəşirik. Öz anamız kimi bizi əzizləyir. Hamımız onu çox istəyirik.

Düz deyiblər, müəllimin güzgüsü onun şagirdidir. V.A.Suxomlinskinin yaxşı müəllim haqqında söylədiyi fikri xatırlamaq yerinə düşər: "Müəllim hər şeydən əvvəl, elə bir adamdır ki, uşaqları sevir, onlarla ünsiyyətdə öz xoşbəxtliyini tapır, gələcəkdə, onlarla dostluq etməyi bacarır, uşaqların sevincini də, nə vaxtsa uşaq olduğunu da qətiyyən unutmur", dəyərli sözlərdir.

Tükəzban müəllim öz bilik və bacarığına görə birinci dərəcəli müəllim adına layiq görülüb.

Ömür-gün yoldaşı Məhəmməd Qurban oğlu ilə beş övlad: bir oğul, dörd qız tərbiyə edib ərsəyə çatdırıblar. 8 nəvələri var.

Tükəzban müəllim eyni zamanda dini kitabları mütaliə etməklə özündə bir rahatlıq tapır.

***Yeni dərs ilin mübarək, Tükəzban müəllim!***

**Suddarxan Kazımov**

## Təbrik edirik!



***5 oktyabr – Beynəlxalq Müəllim günü münasibətilə səmimi təbrik düşən layaqətli müəllimlərimizdən biri də Bolnisi rayonunun Aşağı Güləver ümumtəhsil məktəbinin direktoru, riyaziyyat müəllimi Fərəməz Dünyamalı oğlu Cəlilovdur.***

***35 ildir ömrünü məktəbə, şagirdlərə həsr edən Fərəməz müəllimin sevincini biz də bölüşür, ona və çalışdığı kollektivinə yeni işıqlı yaradıcılıq üfüqləri arzulayırıq!***

**RegionPress**

# Müəllim ömrü

Yaxşı yadımdadır, 1999-cu ilin aprel ayının sonları idi. Şair İbrahimxəlil, aşıq, sazbənd Bafəli, sazbənd Qərib və mən qədim-qayım İncəoğlu kəndində Fərhad müəllimin ailəsində qonaq idik. Yenicə ordan-burdan, el-obalarımızdan söhbət edirdik ki, içəri ucaboylu, gülər üzlü, mehriban görkəmli, 35-40 yaş arası bir gənc daxil oldu. Bizimlə elə səmimi, elə mehriban qucaqlaşıb görüşdü ki, elə bil bir-birimizi lap çoxdandır tanıyır və uzun müddətdir görüşmürükmüş. Ev sahibi – qardaşım oğludu, Aydın müəllimdir, elə məclisimizə də masabəyilik edəcək – deyib tanışlıq verdi. Sonra bizi də bir-bir bu gözəl insanla tanış edib süfrəyə dəvət etdi.



Onun bu xudmani məclisdə şirin söhbətləri, duzlu-məzəli sözləri, maraqlı əhvalatları danışmaq məharəti düzü, məni valeh etmişdi. Məclis bir neçə saat davam etdi. Və biz getmək qərarına gəlib ev sahibi Fərhad müəllimlə halallaşıb evdən çıxdıq. Maşına (sürücümüz də aşıq Bafəli idi) tərəf gedəndə - buyurun, mənim də qonağım olun, mənim qonağım olmağınız mənə şərəf verər – deyib bizi evlərinə qonaq apardı. Yeri gəlmişkən, onu da deyim ki, Aydın müəllimin ömür-gün yoldaşı Səməyə xanım bizim elin – Dəllər elimin qızıymış.

Bəli, Aydın müəllimin evində məclis yenidən başladı. Yenidən qədəhlər doldu-boşaldı. Məktəbdə yeni gənc nəslin təlim-tərbiyəsindən, dilimizin zənginliyindən, poeziyamızın, nəsrimizin dərinliyindən, saz-söz dünyamızdan, milli-mənəvi dəyərlərimizdən... söhbətlər, müzakirələr getdikcə uzanırdı. Və mən burada tək bir şey düşünürdüm; kaş belə qeyrətli, təəssübkeş, vətənpərvər, gözəl insan – Aydın müəllimlə bu görüşümüz daimi dostluğa-qardaşlığa çevriləydi.

Nəhayət, illər keçdikcə bu qayğıkeş, saf ürəkli, pak niyyətli, gözəl diləkli Aydın müəllimlə sıx-sıx görüşdük. Aramızda səmimi qardaşlıq münasibəti yarandı. Bu dostluq-qardaşlıq münasibəti sözün həqiqi mənasında qarşılıqlı gediş-gəlişə çevrildi. Onu da deyim ki, bu günkü sağlam, mehriban və səmimi ailə (Gülnarə xanımla) qurmağımda mənən dəstək olub, düzgün istiqamət verən Aydın müəllim olub. Və mən həmişə ona minnətdaram.

Aydın Xəlil oğlu ali məktəbi bitirdikdən sonra təyinatla Azərbaycan Respublikasının Saatlı rayon bir nömrəli şəhər məktəbinə müəllim göndərilir. 5 il burada şərəflə, vicdanla işləyib, böyük hörmət və nüfuz qazanır. Ömrünün çiçəkləndiyi, pərvazlandığı bir vaxtda (onda 21 yaşı vardı) özünə etibarlı gələcək, xoş gün-güzəran qurmaq məqsədilə geri – doğulub suyunu içdiyi, torpağında böyüdüyü İncəoğlu kəndinə qayıdaraq ömrünü xalqın balalarına elm-bilik öyrətməyi, yeni nəsillərin təlim-tərbiyəsi ilə məşğul olmağı, maarifləndirməyi, eldə-obada millətinə faydalı olmağı özünə ən böyük sərvət bildi Aydın Xəliloğlu.

Türkiyə Cümhuriyyətinin qurucusu, böyük Mustafa Kamal Atatürk demiş: "Müəllim bir şama bənzər, ömrünü əridərək başqalarına işıq verər".

Aydın müəllim gənc nəslin sağlam yetişməsində ömrünü qətrə-qətrə əridən, əsl ziyalı, zəngin bilik xəzinəsinə sahib, təcrübəli məktəb müdiridir. İlk illərdə məktəbdə bəzi çətinliklərlə qarşılaşsa da heç nədən çəkinməyərək, mübarizə apararaq uğurla addımlayıb kənddə mədəni-maarif sahəsində axsamağın daşını ataraq yeni maarifçiliyin əsasını qoyur Aydın müəllim.

Aydın müəllim xoşbəxt müəllimdir ki, ömrünün əriyən hər damlasını, qiymətini, dəyərini xalq uca tutur və qiymətləndirir. Onu da qeyd edim ki, Azərbaycanda ensiklopedik formada nəşr olunan "XX-XXI əsrin yaradıcı və ziyalı insanları" adlı kitabda Aydın Xəlil oğlu Musayevin "Əsrin ziyalısı – ilin müəllimi" başlıqlı həyat və yaradıcılığı haqqında yazı yer tutur. Və "Əsrin ziyalısı" XİB-in rəhbəri (Məleykə Göyçəli) tərəfindən "Əsrin ziyalısı – ilin ən yaxşı məktəb müdiri" fəxri diplomu ilə təltif olunub.

Aydın müəllim məktəbdə necə böyük fədakarlıq göstərirsə, kəndin ictimai işlərində də böyük fədakarlıq göstərir. Kənddə öz şəxsi vəsaitləri hesablarına xeyirxah iş görmək istəyən hər bir eloğlularını səmimi dinləyib, kimin hansı işləri görməyinə düzgün istiqamət verib, yol göstərib, yardımçısı olub Aydın müəllim.

Məsələn, küçələrin işıqlandırılması, (1200 m - Elxan Musayev), 3000 m məsafədən meşədən içməli suyun çəkilməsi (Elman Daşdəmirov), kəndin mərkəzində dayanacağın (Rəşid Yaqubov), həm Bolnis-Çataq şosesində ikinci gözəl bir dayanacağın (Asif Musayev), təbiətin qoynundan 2000 m məsafədən içməli suyu çəkib bulaq düzəldərək 40-50 addamlıq (bütün şəraitlə) kef-məclis yerinin yaradılması (Asif Musayev) Aydın müəllimin səyi və qayğısı sayəsində başa gəlib.

Aydın müəllim haqqında çox danışıb yazmaq olar. Çünki müəllim ömrünün çox böyük bir hissəsini ana dilinə, öyrətməyə, bilik verməyə, yeni-yeni gənc nəsillər yetişdirməyə xərcləyir. Və bu müəllim ömrü, müəllim əməyi nə qədər çox xərclənsə, daha çox gün kimi işıq saçır, parlayır.

Bu ilin sentyabrında ömrünün 55-ci, gənc nəslin təlim-tərbiyəsində isə 34-cü baharını yaşayan sadə, səmimi, xeyirxah, sədaqətli dost, gözəl insan, ağsaqqal-ziyalı Aydın Xəlil oğluna can sağlığı, nəvəli-nəticəli gözəl və uzun bir ömür arzulayıram.

**Qurbanəli İsgəndəroğlu**

# Zabit Abbasqulu oğlu: *"Məqsədim şagirdlərimizə elmin sirlərini daha geniş və dərin öyrətməkdir"*



*Oxucularımıza Qardabani rayonundakı 3 saylı orta məktəbin direktoru Zabit Abbasqulu oğlu Hüseynovun tərcümeyi-halını təqdim edirik:*

*Zabit Abbasqulu oğlu Hüseynov 1957-ci il may ayının 13-də Qardabani rayonunda fəhlə ailəsində anadan olub. 1964-1974-cü illərdə Qardabani 3 saylı orta məktəbində təhsil alan Zabit Hüseynov, orta məktəbi bitirdikdən sonra 1974-cü ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin riyaziyyat fakültəsinə qəbul olur. O, 1979-cu ildə aili təhsil aldıqdan sonra elə həmin ildən də ilk əmək fəaliyyətinə başlayır. Sonra o, Qardabani rayonunun 4 saylı rus dilli orta məktəbində öz əmək fəaliyyətini davam etdirir. Bir müddət məktəbdə müəllim işləyən Zabit Abbasqulu oğlu 1987-ci ildə çalışdığı məktəbin direktoru təyin edilir. 2000-2007-ci illərdə isə Zabit Hüseynov Qardabani rayon maarif şöbəsinin mütəxəssisi vəzifəsində çalışıb. O, 2014-cü ildən Qardabani 3 saylı ümumi məktəbin direktoru vəzifəində çalışır.*

*Ailəlidir. 3 övladı var.*

**-Zabit müəllim, müdiri olduğunuz məktəb barəsində oxucularımıza məlumat verməyiniz xahiş edirik.**

Bizim məktəbdə 750 şagird təhsil alır ki, onların da təlim-tərbiyəsi ilə 55 nəfər təcrübəli müəllim məşğul olur. Bizim təhsil ocağı 2010-cu ildə Azərbaycanda fəaliyyət göstərən Heydər Əliyev Fondu tərəfindən əsaslı təmir edilib, eləcə də təhsil ocağına lazım olan bütün avadanlıqlarla da təmin olunub. Hal-hazırda məktəbimizin müasir standartlara cavab verən laboratoriyaları, kitabxanası, geniş idman zalı və kompyuter otaqları var. Qeyd edim ki, məktəbimizin şagirdləri rayon və respublika səviyyəsində keçirilən bir çox layihələrdə də fəal iştirak edirlər.

**- Zabit Abbasqulu oğlu, rəhbərlik etdiyiniz ziya ocağında çalışdığınız müddət ərzində hansı yeniliklər həyata keçirilib?**

Mənim amalım və məqsədim məktəbimizdə daima daxili nizam-intizam qaydalarını gücləndirmək və ona nəzarət etməkdən ibarətdir. Bu gün biz buna yüksək səviyyədə nail olmuşuq. Tədris ocağındakı mandatura sistemi məktəbdə geniş dönüş yaradıb. Belə ki, məktəb şagirdlərinin bütövlükdə təhlükəsizliyi yüksək səviyyədə təyin edilib. Onu da bildirim ki, məktəbimizin şagirdlərinin bilik və qabiliyyətinin artırılması üçün mütəmadi olaraq bütün fənlər üzrə siniflər arasında yarışmalar da təşkil etmişik.

**-Zabit müəllim, belə bir möhtəşəm təhsil ocağına rəhbərlik etmək sizin üçün çətin deyilmi?**

Doğrudur, möhtəşəm ziya ocağına rəhbərlik etmək həm çətindir, həm də məsuliyyət tələb edir. Mən üzərimə düşün vəzifəni dərk edərək, öhdəsindən layiqincə gəlməyə çalışıram. Onu da deyim ki, hər zaman bir müəllim kimi, şagirdlərimizə elmin sirlərini daha geniş və keyfiyyətli öyrətmək mənim arzum olub.

**Nadir Almazoğlu**

# GÜRCÜSTANIN İLLÜSTRASİYALAŞDIRILMIŞ TARİXİ

Gürcüstan tarixinin bu vizual yenidənqurulması əsas hadisələri, mühüm faktları nə vaxtsa real olaraq baş verən olayları ayrı-ayrı kitab şəklində ayırır və bir böyük, əsas silsilə olaraq birləşdirir. Bu kitablar bütün yaşdan olan oxuculara, ailənin bütün üzvlərinə məxsusdur – kiçik nəsildən tutmuş böyük nəslə qədər... tanış olduğu vaxtdan – yada saldığı vaxta qədər...

İllüstrasiyalaşdırılmış tarixin bu cildi konkret dövrlərin tədqiqatçı- tarixçilərinin nəql etdiyidir və dəst- xətti ilə , üsulu ilə bir- birindən tamamilə fərqlənən rəssamlar tərəfindən illüstrasiyalaşdırılmışdır. Nəşr üçün sənədli materiala istinad edərək hər bir dövrün döyüş, dünyəvi və kilsə kostyumları, xəritələr və sair yaradılıb.

Bütün təsvir olunan hadisə, epizod, cizgi, nadir muzey eksponatı, foto və freska təqdim olunan materiala sənədli dəqiqlik verir. Silsilə üçün xüsusi olaraq Gürcüstan Milli Muzeyinin, Gürcüstan Dövlət Teatr, Musiqi və Xoreoqrafiya arxivinin, Gürcüstan Parlamenti Milli Kitabxanasının, Gürcüstan Əlyazmaları Milli mərkəzinin arxivlərindən bizə verilən muzey eksponatlarının siyahısı tərtib olunub.

Kitabların bu silsiləsinin yaradılması üçün alimlərin, rəssmamların, filoloqların, istərsə də texniki personalın böyük dəstəsi 3 il müddət ərzində yorulmadan çalışmış və indi də çalışmaqdadır...

Tarix xronoloji ardıcıllıqla toxunur; bu mürəkkəb naxışdır, bir-birilə görünməz iplərlə bağlıdır.

Buna görə də sözügedən silsilə bir-birinə bağlı fərqli mövzuları əhatə edir və Gürcüstanın salnaməsini yaradır. Hər bir cild bu salnamənin fərqli səhifəsidir. Bu baxımdan bütün cildlər bir-birini tamamlayır. Onların hər biri öz incəliliyi ilə əhəmiyyətlidir...

Bu silsilə 24 cilddən ibarət olacaqdır. İndiyədək çıxan cildlərin bəzilərində Azərbaycan mövzusuna da yer ayrılmışdır. Artıq onikinci cildi bu günlərdə işıq üzü görmüşdür. Bu cild «Gürcüstanda ərəblər» mövzusuna həsr olunmuşdur. Girişdə dünya siyasi arenasında ərəblərin görünməsi, Avropa və Asiyanın bir çox ölkələrinin həyatına və inkişafına mühüm təsir göstərildiyi qeyd edilir. Ərəbistanda formalaşan yeni dinin -İslam dininin bəşəriyyət tarixində böyük rol oynadığı, bu dinin vasitəsi ilə VII əsrdə ərəb tayfalarının birləşməsinin baş verdiyi və bunun nəticəsində də onların işğalçılıq müharibələrinə sövq edilmələri nəql olunur. Daha sonra qeyd edilir ki, ərəblər işğal olunan xalqların inkişaf etmiş mədəniyyətini mənimsəyərək yeni müsəlman aləmi yaratmışlar ki, bu da dünyaya bir çox memarlıq abidəsi, istərsə də incəsənət nümunəsi bəxş etmiş, eləcə də elmin müxtəlif sahələrinin inkişafına böyük xidmətlər göstərmişdir. Ərəblərin geniş miqyaslı işğallarından geosiyasi cəhətdən öz mühüm məkanına görə Gürcüstan da xilas ola bilmədi. VII əsrdən üzü bu yana ərəblər Gürcüstanda qədəmlərini möhkəmləndirdilər və bizim ölkənin, ələlxüsus. Tiflisin tarixinə mühüm itəsir göstərdilər.

«Ərəblər» başlığı altında ərəblərin vətəni barədə, İslama qədərki ərəblər barədə, eləcə də Məhəmməd peyğəmbər barədə qismən söhbət açılır.

«İslam» başlığı altında isə bu din haqqında xeyli məlumat verilir. İslamın əsas beş şərti, prinsipi, Quran, sünnət, şəriət, Məkkə və Mədinə barəsində gürcü oxucusunda aydın təsəvvür yaradır.

«İsa və Məryəmin İslamda siması» başlığı altında yazılıb: « Müsəlman dininə uyğun olaraq İsa peryğəmbər Məhəmməddən öncəki böyük peyğəmbərdir. İsa Quranın 15 surəsinin 95 ayəsində xatırlanır. Müsəlmanların müqəddəs kitabında onun Məsih, peyğəmbər, həvariyun, Məryəmin oğlu, Tanrıya yaxın olanlardan biri, xeyir-dualı, dünyanın və axirətin şərəflisi, Tanrının sözü, həqiqətləri irəlicədən söyləyən, Tanrının qulu epitetləri verililib. Müsəlman təsəvvürünə görə, İsa mələklər kimi Tanrıya yaxın olan bəndədir ki, onu da Tarnı başqalırndan fərqləndirib. Qurana görə, İsanın doğumunu Məryəmə mələklər müjdələyib: « Ya Məryəm, həqqətən, Tanrı öz tərəfindən bir kəlmə ilə sənə müjdə verir. Onun adı Məryəm oğlu İsa əl Məsihdir ki, dünyada və axirətdə şanı uca( şərəfli) və (Tanrıya) yaxın olmalıdır». Müsəlmanlar İsaya qarşı rəğbət hissi bəsləyirlər və ona qarşı yəhudilərin münasibətini müxənnəltlik kimi hesab edirlər.»

«İsanının təkrar gəlişi» başlığı altında qeyd edilir: «Qurana görə İsa ondan sonra gələn Məhəmmədin üzərə çıxacağını irəlicədən söyləyib. Müsəlman hədislərində İsa axirət günündən öncə olan olaylarda İsanının adı hallanır- O, göydən müqəddəs torpağa- Fələstinə qayıdacaq, nizə əlində İsaya qarşı çıxanı ( Dəccalı) qətlə yetirəcək və Yerusəlimə daxil olacaq. Bundan sonra əmin-amanlıq, şadyanalıq bərqərar olacaq. Müsəlmanların təsəvvürünə görə, təkrar dünyaya gələn İsa 40 yaşında dünyasını dəyişəcək və onu Məkkədə Məhəmmədin özünün vəsiyyət etdiyinə əsasən, onun məzarı yanında dəfn edəcəklər».

Tanrının anası Məryəm Quranda dəfələrlə ( 34dəfə) xatırlanır. Müsəlman üçün hörmətə layiq qadındır ki, Tanrı onu başqa



qadınlardan fərqləndirib. Quran Məryəmin anadan olması və onun boya-başa çatması barədə ətraflı nəql edir. Müsəlmanların müqəddəs kitabına uyğun olaraq Məryəm mələklərlə söhbət aparanda, mələklər onu müjdələyiblər ki, oğlan uşağına nöqsansız olaraq hamilə qalacaq. O da doğulandan sorna İsa adlanacaqdı. Məryəm Quranda nümunəvi, peyğəmbərcəsinə bəndə kimi təsvir olunur. O müsəlmanların təsəvvürünə görə, ən ümdə müqəddəs qadınlardın biridir ki, cənnətə düşən qadınlara rəhbərlik edir. Müsəlmanlar arasında Məryəm ən çox yayılan qadın adıdır.

«Ərəblərin Gürcüstanda görünməsi» başlığı altında ərəblərin 642-643-cü illərdə Gürcüstanı işğal etməsi, gürcülərlə ərəblər arasında sülh danışıqları, «Müdafiə fərmanı» barəsində söhbət açılır.

«Ərəblərin hökmranlığının bərqərar olunması» başlığı altında ərəblər tərəfindən Qərbi Gürcüstanın işğalı nəql edilir.

«Tiflis əmirliyinin yaradılması» başlığı altında Murvan Ğrunun ( Murvan ibn- Məhəmməd-M.M.) hücumları nəticəsidə ərəblərin Kartlini nəhayət zəbt etməsi və burada Tiflis əmiriliyi yaradılması qeyd edilir. «Burada Tiflis şərqi Güney Qafqazın ən başlıca şəhəri kimi göstərilir. Burada deməl olar ki, bütün millətlərdən, dinlərdən olan nümayəndələrə rast gəlmək olardı. Bütün bunlar Tiflisə təkrarolunmaz yaraşıq verir və əcnəbiləri özünə cəlb edirdi. Tiflisdə VIII əsrdən ərəb sikkələri dövriyyədə idi».

«Tiflis əmirliyinin məmurları» başlığı altında ölkəni idarəetmək və əncam çəkmək üçün əmirin ərəb məmurlarından ibarət böyük ştatın olması qeyd edilir. Polis rəisi- Şurta, şəhərdə dini və məişət qaydalarını mühafizə edən məmur -Mustasib, Tiflis əmirliyi sarayında mövcud katibliyə başçılıq edən məmur- Amid, gömrük və ticarət vergilərini toplayan məmur- Müşrib, şəhərin müsəlman əhalisinin əmir sarayında nümayəndəsi olan məmur- Rəis , Tiflis əmirliyinin mühüm məmurlarından biri olan müsəlman hakimi- Qazi, Tiflis qalası qarnizonunun rəisi- Hişna haqqında məlumat verilir.

«Xəzərlərin Kartliyə hücumları» başlığı altında Xəzərlər barədə, Kartliyə onların hücumları barədə, Xəzərlər xaqanının gözəl gürcü qızı Şuşana olan məhəbbəti barədə söhbət açılır:

«Gözəl Şuşan» başlığı altında kiçik hekayətdə nəql olunur: «Kartlinin erismtavariləri İoane və Cuanşerin qeyri-adi gözəlliyə malik Şuşan adlı kiçik bacıları var idi. Onun gözəlliyinin sorağı Xəzərlər xaqanının qulağına da gedib çatdı. Onu görmədən Xaqan gürcü qızına vuruldu. Xaqan Cuanşerə elçi göndərdi, Şuşanı özünə arvad istədi. Əvəzində isə ərəblərə qarşı mübarizədə yardım göstərilməsini vəd etdi. Şuşan bütpərəst xaqana ərə getməyə rədd cavabı verdi. Bu rədd cavabından təhqir olunan xaqan sərkərdə Bluçanın başçılığı ilə böyük qoşun göndərdi. O, Kaxetiyə soxularaq bu diyarı amansızcasına dağıtdı, talan etdi. Çoxlu insan məhv etdilər və sonra Cuanşer və onun bacısının sığındığı qalaya yetişdilər. Qanlı döyüşlərdən sonra Xəzərlər qalanı ələ keçirdilər, Cuanşer və onun bacısını əsir götürdülər və Xəzəristana doğru üz tutdular. Ümidsiz qalan Şuşan bütpərəst, yabanı xaqanın arvadı olmaqdan ölümü üstün tutdu. – O öz üzüyünün qaşı altında gizlətdyi zəhəri içdi. Cuanşer bacısının belə bir ölümünə möhkəm acıdı və çox yas saxladı. Xəzərlər Şuşanı elə oradaca torpağa tapşırdılar və öz yollarına davat etdilər. Sərkərdə Bluçan Şuşansız xaqanın hüzuruna getdi. Hökmdar çox hirslənərək,- Şuşanın cənazəsini niyə gətirmədin, heç olmasa üzünü görə idim, -deyib. Xaqan öz sərkərdəsini dəhşətli ölümə məhkum etdi. – Bluçanın boğazına kəndir bağladılar, kəndiri o tərəf - bu tərəfə çəkmək üçün iki atlıya verdilər və beləcə onun başını üzdülər . Xaqan bir müddət Cuanşeri əsir saxladı, sonra isə hədiyyələr ilə onu Kartliyə yola saldı».

Sonra Tiflis əmirliyinin hakim sülalələri, Buğa Türkün hücumu, gürcülərin ərəb hökmranlıqlarına qarşı mübarizəsi, ərəblərin Gürcüstana son hücumu və sair barədə söhbət açılır.

Və nəhayət, maraqlı başlıqlardan biri olan «Tiflis- müsəlman aləmininn mühüm şəhəri» başlığı altında VIII əsrdən üzü bu yana Tiflisin Şərq müsəlman aləminin mühüm şəhərini təşkil etdiyi qeyd olunur. Burada «Tiflis müsəlman mədrəsələri», «Qafqazın ilahiyyat mərkəzi», «Çoxetnikli və çoxməzhəbli Tiflis», «Tanrı tərəfindən seçilən şəhər». «Tiflisin müsəlmanlar və gürcülər üçün əhəmiyyəti» adlı mövzular yer alıb.

Sonda Qurucu David tərəfindən Tiflisin alınması, onun dövründə mis sikkələrin buraxılması, Tiflisin Gürcüstanın taxt-tac şəhəri olması, əmin-amanlıq şəraitində birgə yaşayış və sair mövzular da vardır. Bir şeyi də qeyd etmək lazımdır ki, Tiflis məscidi adı ilə gedən foto-şəkildə yanlışlıq var, onun yerinə başqa foto-şəkil verilib. Tiflis cümə məscidi, eləcə də Şah Abbas məcidinin foto-şəkli deyildir. Kitabda onu çəkən sənətkarın da adı yoxdur və hansı tarixdə çəkildiyi göstərilmir. Bizcə bu məscid Bakıdakı Şirvanşahlar sarayındakı Şah Məscididir.

Beləliklə, bir daha qeyd etmək lazımdır ki, bu «Gürcüstanın illüstrasiyalaşdırılmış tarixi» silsiləsindən nəşr olunan 12-ci cild gürcü oxucusu, eləcə də azərbaycanlı oxucusu üçün çox maraqlıdır.

**Mirzə Məmmədoğlu**

# Şair Səadət Buta haqqında bir neçə sözü

Gürcüstanda yazıb-yaradan şairlərin əksəriyyətini tanıdığım kimi, hələ orta məktəbdə oxuduğum illərdən tanıyıram şair Səadət Butanı. Tanıyıram deyəndə belə fikirləşməsin ki, mən onu şəxsən o illərdən tanımışam. Əslində mən onu mətbuatdan tanımışam. Daha doğru desək, o zaman Tiflisdə nəşr olunan "Sovet Gürcüstanı" (indiki "Gürcüstan") qəzetində onun imzası tez – tez görünərdi. Mən də onun şeirlərini sevə-sevə, əzbərləyə-əzbərləyə oxuyardım. Təkcə oxumaqla kifayətlənməz, onları dönə-dönə əzbərləyərdim, məktəbimizdəki görüşlərdə söylərdim. Sonralar Azərbaycan mətbuatında, "Aşıq Pəri" məclisində, (onu da deyim ki, "Aşıq Pəri" məclisinin ilk qədəmləri də Borçalıda ayaq açıb. Rəhmətlik Narınc Xatunun Borçalıya səfərlətrinin birində Səadət xanımın çox yaxından köməyi və məsləhətiylə bu məclisin əsası qoyulub) Televiziyadakı çıxışlarında, sazlı-sözlü görüşlərdə daha da yaxından izləmiş və yavaş-yavaş dərinliyində saxlayır, nə qədər vaxt keçir keçsin, soruşanda əzbərdən deyir, fenomen yaddaşa malikdi. Hətta günlərin bir günü aşıq Solmaz görür ki, Buta heç qələm-dəftərdən istifadə etmir, ancaq təzə şeirlərini əzbərdən söyləyir və deyir ki, təzə şeirlərinin əlyazmasını mənə ver, lazımdı. Buta isə özünəməxsus şirinliklə cavab verir: Atam-anam, mənim dəftərim nə gəzir, şeirlərim beynimdədi .Aşıq Solmazsa belə deyir: amandı, Buta Bakının yollarına da nabələdsən, yolu keçəndə maşın vurar, bütün külliyyatın məhv olar, şeirlərini varaqlara köçür. Bəli, mən də şahidi oldum ... Səadət xanım zümzümə edir, qımqıma deyir, deməli yeni şeir yaranır. Bəlkə də ona görə şeirləri belə dadlıdı. Bu da bir möcüzədi, Allah vergisidi.

Səadət Buta böyük şairdi - bu öz yerində. O, həm də el deyimlərinin, əfsanələrin, rəvayətlərin bilicisi, daha doğrusu, yurdumuzun canlı yaddaş boxçasıdı. Səadət Butanın sədaqətlidiki... Danışanda haqqı – salam kəsdiyi hər insana o qədər dəyər verir ki, gəl görəsən. Kimdən bir azca sayği, qayğı görübsə, ömrü boyu unutmaz onu. İllərlə duz-çörək kəsdiyi insanlarla heç zaman ünsiyyətini pozmayıb. "Sovet Gürcüstanı" ( indiki "Gürcüstan" qəzeti ) qəzetində həmişə ona dəyər verən, onun şeirlərini daim çap eləyən, tanınmasında əvəzsiz xitmətləri olan rəhmətlik Süleyman Süleymanovun ona verdiyi dəyərlərdən danışır Səadət Buta. Aşıq Solmazdan razılıq edir, ona necə mənəvi dayaq olduğunu, ağır günlərində ağrısına-acısına həmdəm olduğunu deyir, arxa olduğunu və bu insanlığı bir ömür unutmayacağını deyir. Tiflis radiosunun redaktoru, qocaman jurnalist Emin Elsevərə, şair, jurnalist, tədqiqatçı Mirzə Maşova, rəhmətlik Əzizə Cəfərzadəyə və s. çox minnətdarlıq edir .

Azərbaycanın qocaman ustad şairi Nəriman Həsənzadə onun qoşmalarını "Ədəbiyyat və incəsənət" qəzetində necə çap et-



onunla ünsiyyətdə olmağın sevincini dadmışam.

Sonra yol yoldaşı, eyni məclislərdə olduğumuz vaxtlar onun-la daha da doğmalaşmaq, ondan öyrənmək, onun dopdolu sinəsindəki ləl-cəvahiratdan qidalanmaq nəsib oldu mənə .

İstər Bakıda, istərsə doğma Borçalıda dönə-dönə mübarək hacıxanımla, böyük şairlə. saçının birini ağ. Birini qara hörərək, dar və amansız ağrı-acılara sinə gərərək övladlarını çox sağlam böyüdüb, ərsəyə gətirən bir anayla və doğma yurdun hər obasında olan bir əziz gündə, toy-düyündə ağır el havalarına nənələrimizdən gələn bir ağırlıqla, qürurla oynayan, müqəddəs duyğularını milliliyimizin abırına bağlayan bir nənənin iç dünyasına daha da yaxından bələd olmağa çalışmışam.

Onu da deyim ki, Səadət Buta öz oyun üslubuyla Borçalımızın təsdiqini bir daha bütün dünyaya göstərir . Onun belə məqamını görəndə Borçalının çox ünlü şairi Arif Mustafazadənin bir məşhur şeirinin misraları düşür mənim yadıma.

*Bir ağır hava çal, qoca zurnaçı*
*Nənəm ağır-ağır çıxsın ortaya.*
*Bir oyun başlasın ala torannan,*
*Qurtara bilməsin gün günortaya.*

Mən Səadət Butanın şeirlərini hər oxuyanda nə qədər güc aldığımı söyləsəm yerinə düşər. Onun özünü dinləyəndə isə nə qədər zənginləşirəm, bunu bilməyinizi də istərdim. Mən onu günlərlə dinləmişəm. Dinlədikcə zövq almışam . İnsan nə qədər dolu olarmış, ay Allah! Nə qədər zəngin olarmış! Onun sinəsində nə qədər xalq deyimləri, el söyləmələri, hekayələr, rəvayətlər, atalar sözləri, bayatılar, zümzümələr var.

Kim şeiri necə yazır, bilmirəm. Səadət xanımın şeirlərinin hamısı onun şipşirin zümzümələrindən süzülüb gəlir. Şeiri, ilk öncə, nəğməli diliylə hafizəsinə köçürür, yaddaşının yaddaşınnan çoxları bəhrələnib. Ondan eşitdiklərini aparıb çəpərin o biri ucunda bir az dəyiş-düyüşlə öz adlarına sırıyanlar da az olmayıb.

Səadət Buta saz havalarının, tütəkdə və neydə səslənən zümzümələrimizin, qara zurnada çalınan qeyrət havalarımızın çox zəngin bilicisidir. O bəzən üzülür, bəzən küsür biganələrdən. "Varını verən utanmaz". Bu doğrudan da belədi. Səadət Buta təkcə varını verməkdə kifayətlənməz. O, anlayan hər kəsə canını da verməyi özünə borc bilər. Ta ki, onu başa düşən, dinləyən ola.

Onda olan el-el, oba-oba, mahal-mahal yurdumuzu gəzib xalq incilərini yerli-yerində toplayıb, yenidən xalqa qaytarmaq həvəsinə və istəyinə vurğun olmamaq olmaz. Və onda olan bu sonsuz həvəsi ilk dəfə görən və dəyərləndirən də xalq şairi rəhmətlik Hüseyn Arif olub. Bu yaxınlarda Gürcüstanda nəşr olunan "RegionPress" qəzetində onun özünün çox maraqlı fikirlərini oxudum və çox məmnun oldum. Orda Səadət xanım yazır ki, Hüseyn Arif Başkeçidə o zamanlar tez-tez gələrdi. Bir bayram tədbirində Hüseyn Arif dedi ki, bu ellərdə çox zəngin xalq deyimləri, xoş havaları var. Onları toplamaq lazımdı. O, bu işi mənə tapşırdı, yanıma köməkçi verdi .Dmanisinin o zamankı raykom katibi Emzar Beridzedən də bu işə yardımçı olmağı xahiş elədi . Mən də el-el gəzib çox zəngin xəzinə topladım. Onlardan biri də Ay nadan balam" zurna havasıdı. Gəyliyənli usta İrvahamın dediyinə görə onu ilk dəfə Hamamlı Alı Qara (ona keçəl də deyərlərmiş), bir də onu Darvazlı kor Alı çalıb. Onların çoxu unudulsa da mən həmən dəsti – xətti qurub sözləri yenidən cilalamışam .

Gözəl, yaddaqalan havalardan (zurna havaları), " Şallı gəl", "Tiflisi", "A yaz gülü, yaz gülü", "Əsgərlikdən yar gəlib", "Qurban olum Çıldıra", "A dağların sonası", "Ağca Yetər" və daha nələr, nələr...

Ordan başqa bayatılar, nağıllar, dastanlar, gülməcələr toplamışam ki, kitablara sığmaz.

Səadət Butanın bu əməyini, bu zəhmətini də görənnən sonra mən bir daha onun qarşısında baş əyməyi özümə borc bildim və onun alimliyinə də şübhə yerim qalmadı . Bax, budu şair Səadət Buta, dedim.

Hətta Səadət Butanın tamam görünməyən bir cəhəti də var. O xalqdan gələn , dildən-dilə keçib yaşayan nə qədər sözü-söhbəti öz səmti-sorağına düzəldib. Yaddan çıxan xalq şeirlərinin unudulmuş yerlərini öz ifadələriylə, öz fikirləriylə xalq deyiminə uyğun işləyib, onları yenidən xalqın ixtiyarına verir. Görün onda nə qədər ürək genişliyi, qəlb böyüklüyü var.

Qədirbiləndi Səadət Buta . Duz-çörəyə, düz çörəyə o qədər dirdiyini, ona verdiyi dəyərdən danışır dönə-dönə.

O qədər güclü yaddaşı, dərin hafizəsi var ki, bitmək-tükənmək bilmir. Ömrünün bu müdrik çağını yaşayan bu söz ağbirçəyi, saz ağbirçəyi, yurd və vətən ağbirçəyi heç zaman düzməkdən, qoşmaqdan, yazmaqdan, yozmaqdan yorulmur. Borçalının hər guşəsinnən gələn saz və söz xəzinəsidi Səadət Buta. O, bu yurdu canı qədər, qanı qədər sevir. Yurdun hər sözünü-kəlamını bir ləli-gövhər dəyərinə gətirməyi bacarır . Ərzurumdan, Sivasdan üzübəri o ellərin də söz boxçası onun sinəsində düzüm-düzüm düzülüb.

Dönə-dönə dinləmişəm Səadət Butanın ürək döyüntüsünü, qəlb atəşini. Hər dəfə də bir universitet bitirmişəm sanki. Evimizin, ailəmizin əzizi kimi dönə-dönə açıb qapımızı. Sonra da özü açıb sinəsinin ləli-gövhər süfrəsini.Di gəl, onnan doy görüm necə doyursan?!

"Borçalı İctimai Cəmiyyəti"nin düzənlədiyi neçə-neçə gözəl məclisin yaraşığı olub Səadət Buta . " Dədə Camal " məclisində, səs-sorağı və ünü, şöhrəti bütün Türk dünyasına yayılan "Elat" bayramlarında lazımınca dərs almışam Səadət Butadan. Qarsda, Çıldırda, İzmirdə, İstanbulda və Türkiyənin neçə-neçə bölgələrində Borçalını və borçalılığı təmsil eləyib bu əvəzi olunmayan şair. Hər yerdə də özü olub, yurdun və vətənin ən layiqli sözü olub Səadət Buta .Heç kəsdən pəsinməyib, sözünü mərdi-mərdanə deyib.

Yurdun və Vətənin yad əllərdə qalmasına dözməyib Səadət xanım. Göyçənin, Təbrizin, Dərbəndin ağrı-acılarını öz ağrı-acıları qədər bilib. Bilib və yeri gələndə öz dəyərli, ağrılı sözləriylə aləmə car çəkib.

*Qəlbimtək Borçalım paralanıbdı,*
*Dərbəndim, Təbrizim aralanıbdı.*
*Dərdim düzüm – düzüm sıralanıbdı,*
*Doğranıb ciyərim, parası qalıb.*

Şeirdən - şeirə, misradan-misraya, kəlamdan-kəlama bir yurd sevdalısıdı Səadət Buta. Vətənə dəyən və vurulan hər bir zərbənin onun sinəsinə vurulduğunu görürük. İnsan nə qədər ağrılara-acılara tab gətirər. Sanki bir ahdı, nalədi, haraydı bu cür şeirlərində Səadət Buta.

*Gözüm üstə saxlamadım mən vətəni,*
*Gözlərimin qarasını itirdim.*
*Gülüstanda bir fərmana qol çəkib,*
*Təbriz adlı balasını itirdim.*

*... Bir Göyçədə borana bax qara bax,*
*Qolu bağlı haray çəkir Qarabağ,*
*Mən Butanı qul eylədi, yara bax,*
*Olanımın əsasını itirdim.*

Bu cür dünyadolusu dərdin harayı düyanı dərk eləməyə çağırmırmı bizləri?

*(Davamı gələn sayımızda)*

**Güllü Eldar ( Tomarova )**
***Rustavi – Başkeçid***

# Həyatın enişli-yoxuşlu yolları



Dünyada yaşayan bütün insanların, ümumiyyətlə, bütün canlı varlıqların öz həyatı var. Həyat bəzilərinə sadə, kiçik bir məfhum kimi görünsə də, mənaca cox dərindir. Həyat elə bir dərinlikdir ki, orada her şeyə: bağışlanmağa, nifrət etməyə, gülməyə, ağlamağa yer tapılır. Bəzilərini güldürən zaman, bəzilərini ağladır bu dərinlik. Bəzilərini bağışlasa da, bəzilərinə nifrəti dərindən-dərindir. Bəzilərinin yoluna nur çiləyən, ən bəxtəvər çağlarını yaşadan, arzularını gül kimi açdıran zaman, digərlərinin qəlbini qırır, ürəklərində sağalmaz bir şırım açır. İnsan var həyatıyla razılaşar, həyatını olduğu kimi qəbul edib yaşayar, insan da var kirpikləri qan yaş tökər, həyatıyla barışmaz, üz döndərər ondan. Amma həyat vaxtında uzadar kömək əlini yolsuz yoxuşlarda, aşılmaz dağlarda tutub əlindən o zirvələrə qaldırar insanları...

Həyatından razı qalıb, nəfsinə yenilən, günah işlədən insanlar həyatlarından xəbərsizdirlər. Nəfsləri onları ovar, işlədikləri günahlar isə qəlblərində qalan son məhəbbəti də nifrətə döndərər, var-dövlət onları qanadlandırar, tamahları daha da artar daha irəliyə getməyə çalışarlar. Amma gəlin unutmayaq ki, dunyanın zaman adlı bir yumruğu var ki, o yumruq istənilən vaxt sənin başında ola bilər. Hər bir insanın son qismәti kəfəndir - fərq eyləməz istər varli, istər kasıb istərsə də alim, ya çoban olsun. Torpaq üçünsə yaxşı yemi var dünyanın - istər sümük, istər dəri, istərsə də ət. Hara qaçırıqsa qaçaq, savabla günahın, hara gizləniriksə gizlənək, ölümlə həyatın arasındayıq. Həyatın gözündə hər birimiz bir parça zərrəyik. Bunu hamı yaxşı bilir, lakin, yaxşı dərk edirlərmi görəsən? Məhz elə butun bunlara görə də həyat enişli, yoxuşludur. Borcumuzsa, onu dərk etmək, onunla razlaşmaqdır. Yoxuşunu, çətin də olsa, asta-asta qalxmalı, enişi isə bizi sürətlə endirəcək. Budur həyatın mənası…

**Arzu Bayramova**
***Marneuli rayonunun Qasımlı ümumi məktəbinin 11-ci sinif şagirdi.***



**Pənah Başkeçidli**

## Özünün olsun

Tanrının verdiyi hər bir insanın,
Ad qoyun, dadı da özünün olsun.
Qəlbinin təpəri, əhdi-ilqarı,
Gözünün də odu özünün olsun.

Şair olub söz çələngi düzərsə,
Qartal olub, səmalarda süzərsə,
Gözəl olub neçə canlar üzərsə,
İsməti, saf adı özünün olsun.

Böyük ağlın qarşısında baş əyə,
Böyük qəlbin qarşısında diz əyə,
Acizlərə, məzlumlara gülməyə,
Mürvəti, imdadı özünün olsun.

Amal uğurunda ölmək bacara,
Vətən harayına gəlmək bacara,
Həm ağlamaq, həm də gülmək bacara,
Əcdadı, soy adı özünün olsun.

Pənah, dost bağında güllər becər sən,
Şərəflə yaşayıb mərdliklə, dol sən,
Vətən üçün şəhid olmaq istəsən,
Hər kəsin qanadı özünün olsun.

## Borçalı

O ağır ellərin sazlı, sözlüdür,
Dərdə dərman çeşmələrin, Borçalı.
Həsrətindən qəlbim qorlu, közlüdür,
Sənsən eşqim, məhəbbətim, Borçalı.

Adətin, ənənən mənim canımdır,
Füsunkar torpağın xanimanımdır,
Orucun, namazın, din imanımdır,
Qibləm, Kəbəm, ziyarətim Borçalı.

Cənnət misal bir diyarsan, adın var,
Nemətlərin əvəzsizdir, dadın var,
Müqəddəssən, alovun var, odun var,
Şeir dünyam, mərifətim Borçalı.

Ustadlar vətəni, a doğma diyar,
Qoynunda nə qədər dühalar yatar,
Sadıq, Məmməd, Dədə Əmrah, Kamandar,
Sənət dünyam, dəyanətim Borçalı.

Qismət olsa, görüşünə gələydim,
Dostlar ilə ağlayaydım, güləydim,
Sənin ana qucağında öləydim,
Olmayaydı qəbahətim, Borçalı.

Pənah deyər, mən də sənin balanam,
Həsrətinlə öz sazımı çalanam,
Qızılgültək açılanam-solanam,
Sənsən mənim təravətim, Borçalı.

## Telli sazın simiyəm

Əziz dostum, bizim üçün ağlayan,
Onu bil ki, mən də sənin kimiyəm.
İlham ilə, qeyrət ilə çağlayan,
Fəryad edən telli sazın simiyəm.

O doğma dağların başı dumandı,
Gəl məni yandırma, qardaş, amandı,
Bizi ayrı salan zalım zamandı,
Qəriblərin dostuyam, həmdəmiyəm.

Dünyanı heç nədən yaradan Tanrı,
Seçməyən bəyazı qaradan Tanrı,
Çıxardan mərdləri sıradan Tanrı,
Əməliyin avamıyam, kəmiyəm.

Qollu dağın zirvəsində olaydım,
Bulud kimi boşalaydım, dolaydım,
Arzum budur vətənimdə solaydım,
Ayrılığın, qəribliyin şamıyam.

Qəm çəkmə, ay Pənah, dünya yamandı,
Tək yaxşı ad bu dünyada qalandı,
Xiffət, həsrət məni dərdə salandı,
Dəryalarda başsız qalmış gəmiyəm.

## Qanun

Eh, canım, nə qoyub, nə axtarırsan,
Ölüb bir quruca şəkildi qanun,
Çarığın yırtılıb, xəbərin yoxdu,
Tapmazsan, tapılmaz müşküldü qanun.

Əyyaşlar, quldurlar gəldi şah oldu,
Allahsız olanlar bir Allah oldu,
O gündən min təqsir, min günah oldu,
O gündən qeybətə çəkildi qanun.

Xalidin hər anı ağrı-acıdı,
Həqiqət pulluynan qardaş-bacıdı,
Zavallı yoxsula dar ağacıdı,
İmkanlı olana vəkildi qanun.

## Dəyişərmiş

Naşı insan bildinmi ki, ömürdən,
Zəmanə dolanar, hal dəyişərmiş.
Əgər xərcləməsə yeri gələndə,
Keyfiyyətdən düşüb, mal dəyişərmiş.

Dinəndə min rəngə çalan sifətin,
Görmədim elmdə xətir-hörmətin,
Gərdişi anlamaq çətindir, çətin,
Bir üzə fırlanmaz, val dəyişərmiş.

Duymadın el qəmi, yoxsa qəmindir,
Yaltaqlığa dedin kef aləmindir,
Bilmədin həyatda səhnə kimindir,
Bir gün oynadığın rol dəyişərmiş.

Xalid, hüdudsuzdur həyatın sonu,
Hələ gedib-gələn olmayıb onu,
Vaxtında çoxları bilmədi bunu,
Bir gün də getdiyin yol dəyişərmiş.

## A dünya

Dünya büsatını edərsəm seyr,
Qiymətsizdi zəka, ağıla dünya,
Arının balını ayılar yeyir,
Haqsızlıq olubdu nağıl, a dünya.

Qanun pərdəsiylə gözü yumurlar,
Masa arxasından cibə cumurlar,
Nə qədər verirsən, yenə umurlar,
Deyirlər inəktək sağıl, a dünya.

Əli möhürlülər, çiyni çinlilər,
Soyulmamış qoyubmu görün bir nəfər,
Xalidəm, sevmirəm nə böhtan, nə şər,
Çarxına nizam ver mağıl, a dünya.

**Xalid Əlisoy,**
*Bolnisi, Həsənxocalı kəndi*

## Dilqəm Səmədoğlu ilə aşıq Əfqanın deyişməsi

**D.Səmədoğlu:**
Aşıq qardaş, o nədir ki, adı bəlli, sayı yox,
Söylə hansı məkandır ki, onun qışı-yayı yox,
Yeddi rəng var, yeddisi də bir gözəldə cəm olub,
Əsli-zatı bizə məlum, amma haqqı-sayı yox?

**A.Əfqan:**
Şair, deyim, o ulduzdu adı bəlli, sayı yox,
O məzardı, son məkandı, onun qışı-yazı yox,
Göy qurşağı əzəl gündən yeddi rəngdən yaranıb,
Əsli-zatı bizə məlum, amma haqqı-sayı yox.

**D.Səmədoğlu:**
Bu dünyaya kim gəlibdi söylə ata-anasız,
Kimdi milyon qan axıdıb yenə qalıb cəzasız,
Yerlə göy arasındadı, yaşayammaz fəzasız,
Əməlini bir-bir yazar, yazmağa varağı yox?

**A.Əfqan:**
Adəm ata bu dünyaya gəlib ata-anasız,
Əzrayıldı çox qan töküb, yenə qalıb cəzasız,
Mələklərdi bircə gün də yaşayammaz fəzasız,
Əməlini bir-bir yazar, yazmağa varağı yox.

**D.Səmədoğlu:**
O nədir ki, əzəl gündən xarabadı vətəni,
O nədir ki, üç ay keçir, təkmilləşir bədəni,
O nədir ki, daim qaçır, kimdi onun güdəni,
Zülməti nura qərq edir, şamı yox, çırağı yox?

**A.Əfqan:**
O bayquşdu əzəl gündən xarabadı vətəni,
Qurbağadı üç ay keçir, təkmilləşir bədəni,
Nurlu aydı daim qaçır günəş onun güdəni,
Zülməti nura qərq edir, şamı yox, çırağı yox.

**D.Səmədoğlu:**
Bir de harda qərar tutur, yerin-göyün sultanı,
O nədir ki, bircə günə dolaşır bu dünyanı,
Söylə hansı şəhərdir ki, çoxdu onun insanı,
Soruşsan cavab almazsan, səsi yox, sorağı yox?

**A.Əfqan:**
Göyün yeddi qatındadı yerin göyün sultanı,
O günəşdi, bircə günə dolanır bu dünyanı,
Qəbirstanlıq böyük şəhər, çoxdu onun insanı,
Soruşsan cavab almazsan, səsi yox, sorağı yox.

**D.Səmədoğlu:**
Şair Dilqəm haqdan yazır, haqdı onun dayağı,
Əzəmətli olan nədir, üçdü onun boyağı,
O nədir ki, yerdə gəzir, ancaq yoxdu ayağı,
Qocalıb əldən düşsə də tutmağa dayağı yox?

**A.Əfqan:**
Əfqan deyər, yaranmışın əzəl haqdı dayağı,
Azərbaycan bayrağıdı, üçdü onun boyağı,
O ilandı yerdə gəzir, yoxdu onun ayağı,
Qocalıb əldən düşsə də tutmağa dayağı yox.

**Dilqəm Səmədoğlu**



## Ay bu ceyrana

İsmətli gözəldi, mehriban ana,
Olmaz gözəlikdə tay bu ceyrana.
Aləmə şövq saçır üzünün nuru,
Görsə həsəd çəkər ay bu ceyrana.

Dodaqlar püstədi, yanaq qızılgül,
Gözləri piyalə, saçları sünbül,
Oxusa çəməndə şövq ilə bülbül,
Səsləsə verəcək pay bu ceyrana.

Min dərdə məlhəmdi bircə kəlməsi,
Gözəl musiqini andırır səsi,
Atəşi yandırıb-yaxır hər kəsi,
Bənzər fəsillərdən yay bu ceyrana.

Bahar buludutək boşalam, dolam,
Ətirli gül olub əlində solam,
Bircə gün dünyanın xoşbəxti olam,
Süzəm əllərimlə çay bu ceyrana.

Ay Dilqəm, gəl atma eşqin oxunu,
Məcnun edib sənin kimi çoxunu,
O gözəl əndamı, o boy-buxunu,
Tanrı özü verib pay bu ceyrana.

## Dağların

Bilmirəm dağlara təzə nə yazım,
Yenə qar-borandı başı dağların.
Qoymayır tez gələ baharım, yazım,
Elə çən-dumandı qaşı dağların.

Gül-çiçək düzəsən bəyaz yaxıya,
Ətir saça, hər yan gözəl qoxuya,
Quşlar cəh-cəh vura, mahnı oxuya,
Titrəyə səsinnən daşı dağların.

Çoban Musa, gəl bax dağlara sarı,
Halal qazanasan dövləti, varı,
Yayda da əriməz döşünnən qarı,
Uzun çəkər, uzun, qışı dağların.

## Özüm olam

Yağış vurur, dolu vurur, qar vurur,
Göyərməyib hələ daşı dağların.
Nə cür yaranıbdı o cürə durur,
Bilinmir neçədi yaşı dağların.

Dərələrdən axır buz kimi çayı,
Çeşmələri çoxdu, bilinmir sayı,
Hər kəsdən tez görər günəşi, ayı,
Buluddan nəm çəkən qaşı dağların.

Bulaqların şahı Sultan bulağı,
Xoşca qarşılayar gələn qonağı,
Başında kəsəsən buruq oğlağı,
Onda gələr bizdən xoşu dağların.

Sürülərdə sevməz axsaq, arığı,
Mal-qoyuna yağdı yağlı qoruğu,
Vaxtında qızarır moşu-moruğu,
Dərdə dərman olur moşu dağların.

Çoban Musa deyər, ay anam-atam,
Arzu edən deyər arzuma çatam,
Gecə də, gündüz də qoynunda yatam,
Özüm olam özüm, quşu dağların.

## El arasında

Dinlə məni, oğlum, sənə sözüm var,
Çalış hörmət qazan el arasında.
Yaxşıdan yaxşı ol, saysınlar səni,
Yaxşıyı saxlayar el arasında.

Sözü saxla yadda, amandı-aman,
Deməsinlər sənə yamandı, yaman,
Yaşlılara hörmət eylə hər zaman,
Doğru danış hər an gül arasında.

Çoban Musa deyər el qulaq asar,
Namərdin yoluna qoyallar hasar,
Qucaqlayar səni, qoynuna basar,
Qoymaz aparmağa sel arasında.

**Çoban Musa,**
*Dmanisi, Hamamlı kəndi*

Azərbaycanlıların Mədəniyyət Mərkəzi

# Region PRESS

İctimai qəzet

№12 (187) 30.09.2015

Qəzet 2008-ci il martın 15-dən çıxır

**Müəllim şam kimidir, özü yanıb tükənərkən ətrafını işıqlandırır.**
**Atatürk**

## 60 yaşın mübarək!



Gözəl insan, səmimi dost, qabiliyyətli təşkilatçı, sayılıb-seçilən təhsil işçisi, sanballı publisistik yazıları ilə özünə oxucu rəğbəti qazandırmış əzizimiz ***Həsən Abbas oğlu Əzizovu*** ***60*** illik yubileyi münasibətilə təbrik edirik, can sağlığı, uzun ömür və ailə səadəti arzulayırıq!

**Azərbaycanlıların Mədəniyyət Mərkəzi, "RegionPress"**

## AMM-də sertifikatlar təqdim olundu

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən kompyuter kursuna cəlb olunmuş tələbələrin bilik imtahanı nəticəsində sertifikata layiq olanlarla görüş keçirildi. Görüşdə AMM-in sədri Fazil Həsənov, təhsil və mədəniyyət şöbəsinin müdiri Mikayıl Mustafayev iştirak edərək gənclərlə kursun keyfiyyəti, gənclərin gələcək planları haqqında geniş söhbətlər apardılar. Qeyd olundu ki, kurs zamanı əldə olunan biliklər onları kompyuter texnologiyalarından faydalı istifadə etmələrinə yardımçı olacaqdır. Kursun rəhbəri İlham Əhmədov bildirdi ki, kursa cəlb olunan 14 nəfərdən yalnız 7 nəfəri sertifikatlara layıq görülüb. Kurslar 2 mərhələ olmaq şərtilə 3 ay ərzində davam edib. Görüşdə tələbələr və AMM-in rəhbərliyi bir çox mövzularda fikir mübadiləsi apardılar.



Bildiririk ki, növbəti kurslara seçim oktyabr ayının 1-dən 30-dək davam edəcəkdir. Yaş həddi 17 və 17-dən yuxarıdır. Maraqlananlar AMM-in təhsil şöbəsinə müraciət edə bilərlər.

**RegionPress**

## Tiflis Azərbaycan Dövlət Dram Teatrı Litvada keçirilən beynəlxalq teatr festivalında iştirak edib

H. Əliyev adına Tiflis Azərbaycan Dövlət Dram Teatrı Litvanın Yonava şəhərində keçirilən beynəlxalq teatr festivalında iştirak edib. Sentyabrın 25-də Tiflis Teatrı festivalda A. Çexovun pyesi əsasında səhnələşdirilmiş "Ayı" tamaşası ilə çıxış edib. Tamaşanın quruluşçu rejissoru, tərtibatçı rəssamı və musiqi tərtibatçısı Turqay Vəlizadədir. Rolları teatrın aktyorları Aslan Məmmədov, Leyla Qasımova və Turqay Vəlizadə ifa ediblər. Maddi dəstəyi Gürcüstan Mədəniyyət və Abidələrin Mühafizəsi Nazirliyi və "Tiflis Palace" mehmanxanası göstərib.




Bildiririk ki, festival sentyabrın 27-dək davam edib.

## Orxan Pamuk: *"Avropa tarixində dramatik məqamdır"*

**Nobel mükafatlı türk yazıçı Orxan Pamuk Avropa və qaçqınlar məsələsindəki yeniliklərə münasibət bildirib:**



"Mən şadam ki, Almaniya Suriyadan, Şimali Afrikadan və başqa yerlərdən 800 min qaçqın qəbul etmək niyyətindədir, şadam ki, nəhayət, Avropanın qalan ölkələri də bu vacib vəziyyətə reaksiya verirlər.

Bu, Avropa tarixində doğrudan da dramatik məqamdır. Bir neçə gün əvvələ qədər Türkiyə 2 milyon miqrant qəbul edib və yenə də insanlıq qarşısında borcunu yerinə yetirməyə çalışır, bununla müqayisədə başqa ölkələr vur-tut 2 min, 3 min miqrant qəbul edir, bununla belə, şikayətlənirdilər.

Bu, diqqətəlayiq dəyişiklikdir, əlbəttə, bu insanlıq nümayişindən məmnunam və bu insanlar üçün məsuliyyət altına girməyə davam edəcəyimizə ümidliyəm. Bu ümidlə yanaşı, biz unutmamalıyıq ki, bu insanlar öz ölkələrini itiriblər... Qarşımızdakı vəzifəni düzgün qiymətləndirməliyik.

Almaniyanın bu insanlara 30-40 il əvvəl türklərə davrandığı kimi davranmayacağına ümid edirəm. O zaman ki, türklər Almaniyaya müvəqqəti işçi statusuyla gedirdilər. Almaniyanın qaçqınlara vətəndaşlıq təklif etməsi, gələcəkdə onlara alman olmaq məsuliyyəti verməsi bizi ürəkləndirməkdədir.

Bu, Avropa ideyasının inkişaf etdirilməsi üçün çox vacibdir. Mədəniyyəti, dini, tarixi, şəxsi travmatik hekayələri bizimkindən fərqli olan insanlarla birlikdə yaşamaq bizi maarifləndirir. Bizi fərqli insanlar edir.

Bu, bizə azadlığı kitablardan öyrənə biləcəyimizdən daha dərin mənada öyrədir.

Avropanın əsas ideyası təkcə égalité (bərabərlik) və liberté (azadlıq) deyil, həm də qardaşlığa (fraternité) əsaslanır."

## Başsağlığı

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi Tbilisidəki 64 saylı məktəbin müəllimi ***Nigar Allahverdiyevaya*** bacısı **Sevinc Ələkbərovanın** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.
***Allah rəhmət eləsin!***

Marneuli rayonunun Əzizkənd ümumi məktəbinin müəllim və şagird kollektivi məktəbin dərs hissə müdiri **Xaləddin Qurban oğlu Şıxıyevin** vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.
***Allah rəhmət eləsin!***

Azərbaycanlıların Mədəniyyət Mərkəzinin kollektivi "Gürcüstan" qəzetinin müxbiri ***Şamil Ziyadəliyevə*** əzizi **Tariyel Camal oğlu Ziyadəliyevin** vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir.
***Allah rəhmət eləsin!***

## Yuxusuzluq infeksiya yaradır

***Avropa alimləri yuxu ilə bağlı yeni bir araşdırma apardılar.***

6 saatdan az yatan şəxsin orqanizmində soyuqdəymə yaradan infeksiyalar baş qaldırır.

Mütəxəssislər əmin edir ki, yuxu faktoru insan orqanizmində və həyatında



mühüm rol oynayır. Xüsusilə, yuxusuzluq zamanı həssas bədəndə soyuqdəymə və infeksiya xəstəliyinə yoluxmaq riski, yaş, qida, stress, eləcə də siqaret çəkmək kimi faktorlardan dörd dəfə artıq hesab edilir.

## Lətifələr

*Atası oğluna deyir:*
*-Sən haçan ikini düzəldəcəksən?*
*-Ata, mən neyləyim, axı jurnal müəl-limlər otağındadır.*

***

*Məktəb direktoru sinif yoldaşı ilə dalaşmış Tofiqi yanına çağırıb danlayır:*
*- Utanırsan?*
*Tofiqin cavab verməfdiyini görüb əsəbi halda əlavə etdi:*
*- Hə, niyə susursan?*
*- Fikirləşirəm, müəllim.*
*- Nə haqda?*
*- Utanmalıyam, yoxsa yox...*

*Təsisçi:* *Azərbaycanlıların Mədəniyyət Mərkəzi (AMM)*
*AMM-in sədri:* **Fazil HƏSƏNOV**

*Redaktor:* **Binnət ƏLİOĞLU**
*Məsul katib:* **İbrahimxəlil**
*Texniki redaktor:* **Əkrəm QƏHRƏMANOV**
*Kompyuter tərtibatçısı:* **Bahar MƏMMƏDOVA**

*Redaksiyanın ünvanı:*
Marneuli şəhəri, Çolokaşvili küç. 3
İndeks: 3000 Tel.: (+995 357) 22 29 29
Faks: (+995 357) 22 57 88
E-mail: regionpress@yahoo.com
Qəzetimizi Facebook səhifəmizdə də oxuya bilərsiniz:
https://www.facebook.com/regionpress.AMM

**Qeydiyyat şəhadətnaməsi: 09.09.2004. №43/5 z—9**

Fakta və ifadə olunan fikrə görə məsuliyyəti müəlliflər daşıyır.
Qəzet pulsuz yayımlanır.
**TİRAJ: 2000**